26 oktyabr 2022 №79 (1952)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Cənubi Qafqazda əməkdaşlıq formatına doğru



Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələrimiz, demək olar ki, müttəfiqlik səviyyəsinə qalxıb. Bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik. Hesab edirik ki, Qarabağ münaqişəsi başa çatandan sonra vaxt gəlib çatıb ki, Azərbaycan və Ermənistan sülh müqaviləsi imzalasın. Ümid edirəm ki, Ermənistan tərəfi də siyasi iradə göstərərək beynəlxalq birlik tərəfindən tanınan təməl prinsiplər əsasında Azərbaycanla sülh müqaviləsini imzalayacaq. Əgər belə olarsa, Cənubi Qafqaza sülh gələcək və eyni zamanda əməkdaşlıq üçün imkanlar yaranacaq.

Prezident İlham Əliyev bu fikirləri oktyabrın 24-də Gürcüstana işgüzar səfəri zamanı bu ölkənin Baş naziri İrakli Qaribaşvili ilə mətbuata bəyanatı zamanı bildirib.

Azərbaycan Prezidenti ilə Gürcüstan Baş nazirinin təkbətək görüşü oktyabrın 24-də Mtsxeta rayonundakı (Tbilisi yaxınlığında) Muxrani sarayında (Château Mukhrani) keçirilib.

Görüşdən sonra Prezident İlham Əliyev və Baş nazir İrakli Qaribaşvili Muxrani sarayında "Qarabağ xanlığının irsi" sərgisi ilə tanış olublar.

*davamı səh. 2-də*

## Salam, əziz Müslüm...

### Əfsanəvi musiqiçinin 80 illiyinə həsr olunan gecə keçirildi

Bir payız axşamı. Heydər Əliyev Sarayının qarşısından keçən küçə payız əhvallı olsa da, nikbin notlara qərq olub. Səsgücləndiricidən ətrafa doğma bir səs pərvazlanır. Bu səs qanad açıb "Əlvida, Bakı!" dediyi şəhərin üzərinə həzin və səmimi notlar səpələyir... Bu, unudulmaz müğənni və bəstəkar, SSRİ-nin və Azərbaycanın Xalq artisti Müslüm Maqomayevin (1942-2008) ecazkar səsidir.




Möhtəşəm binanın qarşısında vurulan böyük stenddə Mədəniyyət Nazirliyi və Heydər Əliyev Sarayının təşkilatçılığı ilə dünya şöhrətli Azərbaycan musiqiçisinin 80 illiyinə həsr olunmuş "Salam, əziz Müslüm" adlı konsertin afişasını görürük.

Sarayın foyesində isə bizi tamam fərqli bir mənzərə qarşılayır. Burada Maqomayevin həyat və yaradıcılığının müəyyən dövrlərini əhatə edən fotosərgi təşkil olunub. Bundan əlavə, Azərbaycan Milli Kitabxanasının fondundan müğənniyə həsr olunan nəşrlərdən ibarət sərgi də maraq doğurur. Foyenin mərkəzində sənətkarın bu ilin avqustunda Bakı bulvarında qoyulan heykəlinin ilkin variantı – maketi qarşılayır tamaşaçıları.

Zəng çalınır və tamaşaçılar zala daxil olur. Zalda, el dili ilə desək, iynə atsan, yerə düşməz. Elə bil paytaxtın bütün Müslümsevərləri bir araya gəlib. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri dirijor Mustafa Mehmandarovun idarəsi ilə səhnədə öz yerini tutur və yubiley gecəsi başlayır.

İlk olaraq mədəniyyət naziri Anar Kərimov səhnədə qoyulan mikrofona yaxınlaşır, qonaqları və iştirakçıları salamlayır: "Bu gün biz Azərbaycanın və SSRİ-nin Xalq artisti, görkəmli müğənni, bəstəkar, "Şöhrət" və "İstiqlal" ordenli Müslüm Maqomayevin anadan olmasının 80 illiyinə həsr olunmuş yubiley gecəsinə toplaşmışıq. Müslüm Maqomayev haqqında danışmaq böyük fəxarətdir. Çünki o, XX əsr Azərbaycan və sovet estradasının əzəmətli sütunlarından biri olub. Onun bənzərsiz səsi və ölməz əsərləri milyonların qəlbində yaşayır...".

*davamı səh. 2-də*

## Münasibətlərimiz qardaş xalqlarımızın iradəsini təcəssüm etdirir

Azərbaycan-Qazaxıstan münasibətlərinin hazırkı yüksək səviyyəsi ortaq tarix, mənəvi, mədəni dəyərlərlə bir-birinə sıx bağlı olan qardaş xalqlarımızın iradəsini bariz şəkildə təcəssüm etdirir.

Bu sözlər Azərbaycan Prezidenti İlham Əliyevin 25 oktyabr – Qazaxıstan Respublikasının Respublika Günü münasibətilə bu ölkənin başçısı Kasım-Jomart Tokayevə təbrik məktubunda vurğulanır.

Qeyd olunur ki, bu ilin avqustunda Qazaxıstan Prezidentinin Azərbaycana rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi, siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə əlaqələrin daha da inkişafı üçün yaxşı imkanlar açıb.

"Əminəm ki, mövcud imkanlardan yararlanaraq ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan çoxşaxəli əlaqələrin, həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlığımızın davam etdirilməsi və genişləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik", – deyə Azərbaycan Prezidentinin təbik məktubunda bildirilir.

## "Hüseyn Cavid sənəti: ideallar və müasir dövr"

Dahi Azərbaycan şairi, dramaturq Hüseyn Cavidin (1882-1941) doğum günündə – oktyabrın 24-də AMEA Rəyasət Heyətinin binasında beynəlxalq elmi konfrans keçirilib.

"Hüseyn Cavid sənəti: ideallar və müasir dövr" mövzusunda konfrans AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Mədəniyyət Nazirliyi Hüseyn Cavidin Ev-Muzeyinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Əvvəlcə konfrans iştirakçıları Hüseyn Cavidin Bakı şəhərində ucaldılmış heykəlini ziyarət ediblər. Daha sonra AMEA Rəyasət Heyətinin binasında Hüseyn Cavidin Ev-Muzeyinin nəşrlərindən ibarət sərgiyə baxış keçirilib, Azərbaycan Milli Konservatoriyası nəzdində Asəf Zeynallı adına Musiqi Kolleci kollektivinin ifasında Ərtoğrol Cavidin bəstələri səsləndirilib.

Konfransın plenar iclasında mədəniyyət naziri Anar Kərimov, AMEA-nın prezidenti v.i.e., akademik Arif Həşimov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, AMEA Rəyasət Heyətinin üzvləri, Mədəniyyət Nazirliyinin nümayəndələri, eləcə də "Cavid ömrü" filminin yaradıcı heyəti iştirak edib.

Akademik Arif Həşimov tədbiri açaraq ölkə başçısının Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında sərəncam imzaladığını diqqətə çatdırıb, konfransın bu sərəncama əsasən keçirildiyini söyləyib. Cavidin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının, dramaturgiyasının inkişafında mühüm rol oynadığını bildirən alim onun teatra, incəsənətə, ədəbi fikrimizə ciddi təsir etdiyini vurğulayıb.

*davamı səh. 3-də*

## UNESCO-da Qarabağın mədəni irsinə dair məruzə və kitabın təqdimatı

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə elan edilmiş "Şuşa İli" çərçivəsində silsilə tədbirlər ölkəmizdən kənarda da davam edir. Oktyabrın 21-də "Şuşa İli" çərçivəsində Parisdə, UNESCO-nun mənzil-qərargahında "Mədəni irsin aşkarlanması və qorunub saxlanılması sahəsində regional əməkdaşlıq" adlı konfrans keçirilib.

Tədbirdə Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycanın Xarici İşlər Nazirliyinin (XİN) dəstəyi ilə professor Eldar Nadiradzenin rəhbərliyi altında tərtib edilən "Qarabağ xanlığı: tarixi və mədəni kimlik" adlı kitab-albom da təqdim edilib. Beş dildə (Azərbaycan, rus, ingilis, fransız, ərəb) nəşr olunan kitab Qarabağ xanlığının tarixi-mədəni irsini əks etdirən dəyərli faktlarla zəngindir.

*davamı səh. 3-də*

## Əhməd Bakıxanovun 130 illiyi qeyd olunacaq

2022-ci ildə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, ustad tarzən və mahir pedaqoq, Xalq artisti Əhməd Məmmədrza oğlu Bakıxanovun anadan olmasının 130 ili tamam olur.

Prezident İlham Əliyev oktyabrın 21-də Əhməd Bakıxanovun 130 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

*səh. 2*

## "Yeni adlar" layihəsinin yeni mövsümdə ilk konserti

Mədəniyyət Nazirliyinin 2022-ci ilin mart ayından həyata keçirdiyi "Yeni adlar" layihəsi yeni mövsümdə də davam edir.

Layihə müasir Azərbaycan ifaçılıq sənətinin inkişafına, bu sahədə yeni istedadlı nəslin tanınmasına, parlaq ifaçıların yetişməsinə, o cümlədən musiqi sənətimizi dərindən bilən, onu dərk edərək böyük sevgi hissi ilə ifa edən ifaçıların sayının artmasına xidmət edir. Gənc ifaçıların tanınmış dirijorların rəhbərliyi altında simfonik, kamera və xalq çalğı alətləri orkestrləri ilə konsertlərinin keçirilməsi onların sənət yolunda inkişafına mühüm zəmin yaradır.




"Yeni adlar"ın payız-qış mövsümündə ilk konserti oktyabrın 24-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında gerçəkləşdi.

Musiqi axşamında Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin (bədii rəhbər və baş dirijor – Xalq artisti Ağaverdi Paşayev) müşayiəti ilə gənc tarzənlər – respublika və beynəlxalq müsabiqələr laureatları Məhəmməd Xanlarov və Vaqif Təhməzov mükəmməl ifaları ilə musiqisevərlərin könlünü oxşadılar.

*davamı səh. 3-də*

## Vaşinqtonda Hüseyn Cavidin barelyefinin açılışı olub




Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda Azərbaycanın görkəmli şair-dramaturqu Hüseyn Cavidin 140 illik yubileyi münasibətilə xatirə barelyefinin açılışı olub.

Gənc heykəltəraş Kamran Əsədovun müəllifi olduğu barelyef Vaşinqton şəhərinin Corctaun ərazisində yerləşən ABŞ-Azərbaycan Ticarət Palatasının inzibati binasının fasadına vurulub. Layihə ABŞ-Azərbaycan Ticarət Palatası, Azərbaycanın ABŞ-dakı Səfirliyi və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin birgə fəaliyyəti nəticəsində ərsəyə gəlib.

*davamı səh. 2-də*

## Özbəkistanda "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri" başa çatıb

Xəbər verdiyimiz kimi, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM), Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət komitəsi və Özbəkistanın bir sıra qurumlarının iştirakı ilə Özbəkistanda növbəti "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri" keçirilib.

AMM-dən verilən məlumata görə, 16-22 oktyabr tarixini əhatə edən tədbirlər paytaxt Daşkəndlə yanaşı, Buxara, Nəvai vilayətlərini də əhatə edib.

Buxara Gənclər Mərkəzində keçirilən tədbirdə şəhər hakimi Jamol Nasirov, AMM-in direktoru Samir Abbasov, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva çıxış ediblər. Buxara şəhərində ilk dəfə təşkil olunan "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri"nin iki ölkə arasında dostluğun, mədəni-ədəbi əlaqələrin möhkəmlənməsinə xidmət edəcəyi vurğulanıb.



Çıxışlardan sonra konsert proqramı təqdim olunub. Azərbaycanın və Özbəkistanın Xalq artisti Gülyanaq Məmmədova və tarzən, Səmərqənddə keçirilən "Şərq təranələri" beynəlxalq musiqi festivalının Qran-pri mükafatçısı, Əməkdar artist Sahib Paşazadənin ifasında musiqi nömrələri alqışlarla qarşılanıb.

*davamı səh. 8-də*

### Bölgələrdə "Şuşa İli" tədbirləri davam edir




*səh. 4*

### Yerlərdə mədəni həyat və fəaliyyət günün tələblərinə cavab verirmi?

*səh. 4*

### Elmir Mirzəyevin Bakıda müəllif konserti



*səh. 5*

№79 (1952)
26 oktyabr 2022
www.medeniyyet.az

# Cənubi Qafqazda əməkdaşlıq formatına doğru

## Gürcüstan-Azərbaycan-Ermənistan məsləhətləşmələri haqqında fikir mübadiləsi aparılıb



*əvvəli səh. 1-də*

Sərgidəki fotolar professor Eldar Nadiradzenin rəhbərliyi ilə Gürcüstan Milli Muzeyinin fondundakı Qarabağ xanlığına aid artefaktlar əsasında tərtib edilmiş "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitab-albomundan götürülüb. Kitab Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) dəstəyi ilə nəşr edilib.

Kitabda çar Rusiyası dövründə Qarabağda həyata keçirilən ekspedisiyalar zamanı toplanaraq Tiflisdəki Qafqaz Muzeyində – indiki Gürcüstan Milli Muzeyində saxlanılan, Qarabağ xanlığına aid olan 300-dən çox artefaktın fotosu yer alıb. Azərbaycan tarixinin ayrılmaz hissəsi olan Qarabağ xanlığına aid artefaktlar ilk dəfə kataloqlaşdırılaraq bu nəşrdə təqdim edilir. Onların arasında Qarabağ xanlığına aid edilən bayrağın məlum olan ilk təsviri, Qarabağ xanları sülaləsində qorunmuş Şah İsmayılın qalxanı, qədim xalçalar, XIX əsr Şuşa şəhərinin, XIX əsrin sonu-XX əsrin əvvəllərində Sərdar xan sarayının görüntüləri, Mirzə Qədim İrəvaninin müəllifi olduğu Həsənqulu xan Qacarın, Fətəli şah Qacarın portretləri və s. var. Kitab-albom Azərbaycan, rus, ingilis, fransız və ərəb dillərində nəşr olunub.

"Qarabağ xanlığının irsi" sərgisi ilə tanışlıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər.

"Bizim ölkələrimiz arasında misilsiz dostluq əlaqələri və sıx münasibətlər var. Həmin münasibətlər tarixi əlaqələrimizə və qarşılıqlı hörmətə əsaslanır. Əminəm ki, mövcud əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın rifahı naminə daha da yüksək səviyyəyə qalxacaq" deyən İrakli Qaribaşvili görüşdə bu münasibətlərin daha da inkişaf etdirilməsi, eləcə də dünyada və regionda baş verən mühüm prosesləri müzakirə etdiklərini diqqətə çatdırıb.

"Bununla yanaşı, biz regional vəziyyəti, Azərbaycan və Ermənistan arasında olan təmasları, iki ölkə arasında sülh prosesini nəzərdən keçirdik. Şəxsən mən və bizim hökumətimiz ümidvarıq ki, sülh siyasətini həyata keçirmək üçün əlimizdən gələni edəcəyik. Regionumuzda mehriban qonşuluq əlaqələri heç bir əməkdaşlıq formatına zidd deyil, bunu yalnız gücləndirəcəyik və əminəm ki, biz bir yerdə çox işlər görə bilərik", – deyə o bildirib.

Gürcüstanın Baş naziri bu kontekstdə Azərbaycan Prezidentinin Cənubi Qafqazda əməkdaşlıq formatının yaradılması barədə ötən ay Praqada irəli sürdüyü təşəbbüsü dəstəklədiyini vurğulayıb.

Qeyd edib ki, Gürcüstan Azərbaycan üçün önəmli ölkədir və eyni zamanda Azərbaycan da Gürcüstanın strateji tərəfdaşıdır: "Biz artıq reallaşdırdığımız mühüm layihələri nəzərdən keçirdik. Bunlar tarixi layihələrdir – Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmiryolu və Orta Dəhliz. Bizim həyata keçirdiyimiz layihələr bundan sonra da irəliyə aparılacaq və onları daha da sürətləndirmək əzmindəyik".

İrakli Qaribaşvili çıxışının sonunda Azərbaycanın ümummilli lideri Heydər Əliyevin sözlərini xatırladıb: "Onun xatirəsinə bizim dərin ehtiramımız var. O, vaxtilə Gürcüstanda Tbilisidə olanda demişdi, Azərbaycan və gürcü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır. Bizim əcdadlarımız həmin təmasları yaradıb və bu gün bizim vəzifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək".

Prezident İlham Əliyev Gürcüstanın Baş naziri ilə bu il bir neçə dəfə, o cümlədən iki dəfə Azərbaycanda səfəri zamanı görüşdüyünü qeyd edərək bildirib ki, iki ölkə arasında dostluq və qardaşlıq münasibətləri çox dərin ənənələr üzərində qurulub: "Bu gün strateji tərəfdaşlıq əlaqələrimiz demək olar ki, müttəfiqlik səviyyəsinə qalxıbdır. Çünki bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik. Həm beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli formatda. Bir çox önəmli layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütövlükdə Avropa üçün xüsusi əhəmiyyət daşıyır".

İkinci Qarabağ müharibəsindən sonra yaranmış vəziyyətlə və Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının gedişatı ilə bağlı Baş nazirə məlumat verdiyini deyən İlham Əliyev bildirib ki, Azərbaycan Ermənistanla sülh müqaviləsi bağlamaq üçün beş əsas prinsipdən ibarət təkliflərini qarşı tərəfə təqdim edib. Əgər sülh müqaviləsi imzalanarsa, Cənubi Qafqazda əməkdaşlıq üçün yeni imkanlar yaranacaq: "Bu gün, eyni zamanda, söhbət əsnasında Gürcüstan-Azərbaycan-Ermənistan məsləhətləşmələrinə başlanılması haqqında fikir mübadiləsi apardıq. Əgər Ermənistan tərəfi buna hazırdırsa, biz buna hazırıq".

Azərbaycanın Gürcüstanla birgə həyata keçirdiyi irimiqyaslı layihələrə əlavə olaraq yeni təşəbbüslərin də olduğunu deyən Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmiryolunun ötürmə qabiliyyətinin, Gürcüstan üzərindən Avropaya qaz ixracatının, habelə Bakı-Tbilisi-Ceyhan neft kəməri xətti ilə ixracın artırılması və hazırda istismarda olmayan Bakı-Supsa neft kəmərindən də istifadənin mümkünlüyünü qeyd edib.

"Bizim Gürcüstanla dostluq, qardaşlıq, tərəfdaşlıq münasibətlərimiz bu imkanları yaradır. Hazırda enerji resurslarına bütövlükdə dünyada və Avropada böyük tələbat olduğu üçün Gürcüstanla Azərbaycan da bu məsələdə bir cəbhədən hərəkət edərək, bir nöqtəyə vuraraq öz milli maraqlarını təmin edəcək... Bütün bu uğurların təməlində bizim dostluğumuz, xalqlarımızın dostluğu, liderlərin dostluğu və birgə fəaliyyət durur", – deyə Azərbaycan Prezidenti vurğulayıb.

# Əhməd Bakıxanovun 130 illiyi qeyd olunacaq

2022-ci ildə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, ustad tarzən və mahir pedaqoq, Xalq artisti Əhməd Məmmədrza oğlu Bakıxanovun anadan olmasının 130 ili tamam olur.

Prezident İlham Əliyev oktyabrın 21-də Əhməd Bakıxanovun 130 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Əhməd Bakıxanov daim axtarışlarla dolu geniş və çoxşaxəli yaradıcılığı ilə Azərbaycanın musiqi sənəti xəzinəsinə dəyərli töhfələr verib. Muğam aləminin mükəmməl bilicisi olan və tar ifaçılığının sirlərinə dərindən yiyələnən, yüksək istedada malik sənətkar xalqımızın bu misilsiz mədəni-mənəvi irsini bütün fəaliyyəti boyu klassik ənənələrə sədaqətlə qoruyub yaşadıb. Onun ifa etdiyi muğamlar, eləcə də bəstələdiyi mahnı, rəng və təsniflər parlaq sənət nümunələri kimi musiqimizin qızıl fondunda özünəməxsus layiqli yer tutur.

Sərəncamda həmçinin Əhməd Bakıxanovun təşkilatçısı və uzun illər ərzində rəhbəri olduğu xalq çalğı alətləri ansamblının zəngin repertuarı ilə seçildiyi və ölkənin mədəni həyatında yaxından iştirak etdiyi diqqətə çatdırılır. Vurğulanır ki, musiqi salnaməmizə mühüm səhifələr yazmış tar ifaçılarının bütöv bir nəsli Əhməd Bakıxanovun yetirmələridir.

Sərəncamda Mədəniyyət Nazirliyinə Azərbaycan milli ifaçılıq məktəbinin inkişafında, xalq musiqisinin, muğamların tədrisi və təbliğində xüsusi xidmətləri olan Əhməd Bakıxanovun anadan olmasının 130-cu ildönümü ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

# Vaşinqtonda Hüseyn Cavidin barelyefinin açılışı olub

*əvvəli səh. 1-də*

Açılış mərasimində ABŞ-Azərbaycan Ticarət Palatası Direktorlar Şurasının sədri Reza Vəziri, Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim çıxış ediblər. Xəzər İbrahim böyük ədibin irsinin Azərbaycan ədəbiyyatında yeri, Hüseyn Cavidin azadlıq idealları uğrunda apardığı mübarizə yolu barədə danışıb.

Mərasimdə Vaşinqton şəhəri – Kolumbiya federal dairəsinin meri xanım Mariel Bauserin (Muriel Bowser) 2022-ci il oktyabrın 24-nü "Hüseyn Cavidin anım günü" elan etməsi barədə bəyanatının mətni oxunub. Bəyanatda vurğulanır ki, Azərbaycan şairi Hüseyn Cavidin azad və ədalətli dünya idealları, onun ədalətsizlik və ayrı-seçkiliyə qarşı aparmış olduğu mübarizə çağdaş dünyamızda aktual olaraq qalmaqdadır.

Tədbirdə layihənin ərsəyə gəlməsində, eyni zamanda ABŞ-Azərbaycan Ticarət Palatasının fəaliyyətinə verdikləri dəstəyə görə bir neçə nəfərə Hüseyn Cavidin barelyefi əks olunan xatirə lövhələri hədiyyə edilib.

# "Şuşanın dörd fəsli" layihəsi davam edir



Xəbər verdiyimiz kimi, "Şuşa İli" çərçivəsində Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə "4 Seasons of Shusha" ("Şuşanın dörd fəsli") adlı beynəlxalq fotoqrafiya layihəsi həyata keçirilir.

Layihədə iştirak edən məşhur fotoqraflar Şuşada ayrı-ayrı fəsil üzrə fotoşəkillər çəkirlər. Layihəyə Almaniya, Türkiyə, Finlandiya və İsveçrədən fotoqraflar cəlb olunub. Hüseyn Taşkın (Türkiyə) və Reto Guntli (İsveçrə) Şuşa yaz və yayını fotolarda əks etdiriblər.

Şuşanın payızını Tina Katriina İtkonen (Finlandiya) fotoobyektivin yaddaşına köçürəcək. O, 22-27 oktyabr tarixində Şuşada olacaq.

Oktyabrın 21-də Mədəniyyət Nazirliyi Muzey, qalereya və sərgilər şöbəsinin müdiri Nərgiz Abdullayeva finlandiyalı fotoqrafla görüşüb. Görüşdə "4 Seasons of Shusha" layihəsi ilə bağlı fikir mübadiləsi aparılıb.

"Şuşanın dörd fəsli"ndə sonuncu – qış fotolarını isə almaniyalı Hannes Beker çəkəcək.

Qeyd edək ki, xarici fotoqrafların Şuşanı tərənnüm edən, eləcə də şəhərdə aparılan quruculuq işlərini əks etdirən fotolarından ibarət kitab-kataloq nəşr olunacaq. Həmçinin Azərbaycanda, eləcə də fotoqrafların öz vətənlərində və digər ölkələrdə sərgilər təşkil ediləcək.

# Salam, əziz Müslüm...

*əvvəli səh. 1-də*

Nazir vurğuladı ki, gözəl və gur tembrli səsə, parlaq aktyorluq istedadına, mükəmməl səhnə görünüşünə malik vokalçı gənc yaşlarından diqqəti cəlb etmişdi: "Müğənninin ifasında "Koroğlu", "Şah İsmayıl", "Toska", "Aleko" operalarından ariyalar, Azərbaycan və xarici ölkə bəstəkarlarının onlarla estrada mahnısı xüsusi yer tuturdu. Keçmiş SSRİ-nin ən populyar estrada müğənnilərindən biri olan Müslüm Maqomayev, sözün əsl mənasında, ümumxalq məhəbbəti qazanmışdı. Azərbaycan estrada ifaçılığı sənətini xaricdə yüksək səviyyədə dəfələrlə təmsil edən müğənniyə Parisin məşhur "Olimpiya" zalında solo konsertlə çıxış etmək nəsib olmuşdu".




...rolda çıxış edərək dahi Azərbaycan şairinin yaddaqalan obrazını yaradıb. O, bir sıra populyar mahnıların müəllifi kimi də tanınıb. "Azərbaycan", "Mavi əbədiyyət" və s. mahnıları bu gün də milyonların qəlbini riqqətə gətirir.

Anar Kərimov diqqətə çatdırdı ki, 2002-ci ildə Bakıda M.Maqomayevin 60 illik yubileyi Prezident Heydər Əliyevin sərəncamı ilə yüksək səviyyədə qeyd olunub. 2008-ci ildə dünyasını dəyişən sənətkarın adı Prezident İlham Əliyevin sərəncamı ilə əbədiləşdirilib. Paytaxtımızdakı 26 nömrəli onbirillik Musiqi məktəbinə müğənninin adı verilib, Bakı şəhərində yaşadığı evə xatirə lövhəsi vurulub, habelə Fəxri xiyabanda və Moskvada sənətkarın abidəsi ucaldılıb.





Nazir qeyd etdi ki, M.Maqomayev 1974-cü ildə təşkil etdiyi Azərbaycan Dövlət Estrada-Simfonik Orkestri ilə birgə ABŞ, Kanada, Fransa, Almaniya, Finlandiya, İsveçrə, İspaniya, İtaliya, Portuqaliya, Argentina, Braziliya, Polşa və digər ölkələrdə böyük uğurla çıxış edib. O həm Azərbaycanda, həm də keçmiş ittifaqın digər respublikalarında keçirilən dövlət əhəmiyyətli tədbirlər, mədəniyyət günləri, qurultay və plenumlar çərçivəsində təşkil edilən konsertlərin iştirakçısı olub.

M.Maqomayev haqqında bir neçə film çəkilib, müğənni özü isə "Nizami" bədii filmində baş rolda çıxış edərək...

Dövlət başçısının sərəncamı ilə bu il sənətkarın Bakı bulvarında heykəlinin açılışı keçirilib. Prezident İlham Əliyevin sərəncamları ilə 2012 və 2017-ci illərdə müğənninin 70 və 75 illik yubileyləri böyük təntənə ilə qeyd olunub. 2010-cu ildən başlayaraq iki ildən bir Moskvada Vokalçıların M.Maqomayev adına beynəlxalq müsabiqəsi təşkil edilir.

***

Yubiley konserti orkestrin ifasında M.Maqomayevin möhtəşəm "Azərbaycan" əsəri ilə başladı. Daha sonra sənətkara həsr edilmiş filmlərdən kadrlar və müxtəlif illərdə müğənninin çıxış etdiyi SSRİ və dünya səhnələrindəki ifalarının kadrları təqdim edildi. Ulu öndər Heydər Əliyevin M.Maqomayev haqqında vaxtilə səsləndirdiyi fikirlərin yer aldığı tarixi kadrlar alqışlarla qarşılandı.

Gecənin aparıcıları – Əməkdar artistlər Nərgiz Cəlilova və Oleq Əmirbəyov M.Maqomayev yaradıcılığından söz açdılar, konsertin təşkilatçılarına təşəkkür etdilər.

Gecə boyu müğənninin həyatının müxtəlif dövrlərini əks etdirən videokadrlar və müsahibələrindən fraqmentlər tamaşaçıları Müslümlü günlərə apardı.

Xalq artistləri Fidan Hacıyeva və Tünzalə Ağayevanın ifalarından sonra Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, Xalq artistləri Faiq Sücəddinov, Fərhad Bədəlbəyli, Emin Ağalarov çıxış edərək unudulmaz sənətkarla bağlı xatirələrini bölüşdülər. Xalq artisti Miri Yusif müğənniyə ithaf etdiyi mahnısını oxudu. Ukraynada yaşayan istedadlı müğənni Vaqif Nağıyevin ifasında sənətkarın repertuarından "Sən mənim melodiyamsan" mahnısı xüsusi alqış aldı.

M.Maqomayevin uşaqlıq dostu, kinorejissor, Xalq artisti Oqtay Mir Qasım onun "Nizami" filmində yaratdığı obraz və ulu öndərin Heydər Əliyevin tarixi filmlərimizin çəkilişinə göstərdiyi diqqətdən söz açdı. Filmin rejissoru, mərhum Eldar Quliyevi fədakar sənətkar adlandıraraq Müslüm və Eldar sənətinin uğurlu tandemini vurğuladı.

Xalq artistləri Azər Zeynalov, Faiq Ağayev, rusiyalı müğənni Astemir Apanasovun ifaları da gecəyə rəng qatdı.

Yubiley konserti Prezident İlham Əliyevin 17 avqust 2022-ci il tarixində M.Maqomayevin Bakı bulvarında heykəlinin açılış mərasimindəki nitqinin lent yazısından parça və sənətçilərin səhnədə "Azərbaycan" mahnısını birgə ifa etməsi ilə yekunlaşdı.

**L.Azəri**

# BMM-in solistləri Fəs Sufi Mədəniyyəti Festivalında

Mərakeşin Fəs şəhərində oktyabrın 22-dən 29-dək 15-ci Sufi Mədəniyyəti Festivalı keçirilir. Mərakeşin mötəbər mədəni tədbirlərindən olan festival müxtəlif ölkələrdən musiqiçi və sənətkarları bir araya gətirib. Festivalın əsas məqsədi təsəvvüflə bağlı mədəni irsin təbliğidir. Festival çərçivəsində dəyirmi masalar, konsertlər, sənət sərgiləri, ustad dərsləri təşkil olunur.



Qeyd edək ki, təsəvvüf fəlsəfi-dini təliminin mahiyyətində insanın nəfsi ilə mübarizə aparması, bir neçə mərhələdən keçərək Həqiqətə qovuşması dayanır. Təsəvvüf həm də İslam dinindəki mənəvi həyatın və əxlaqi dəyərlərin digər adıdır. Beynəlxalq Muğam Mərkəzinin (BMM) solistlərindən ibarət heyət də festivalda ölkəmizi təmsil edir. Festivalın açılışında səhnəyə çıxan Azərbaycan musiqiçilərinin ifası böyük maraqla qarşılanıb.

Festivalın proqramına əsasən, oktyabrın 23-də xanəndələr Mirələm Mirələmov, Kamilə Nəbiyeva bir saatdan artıq proqramda muğam və xalq mahnılarımızdan ibarət musiqi çələngi təqdim ediblər. Xanəndələri nağarada Əməkdar artist Kamran Kərimov, tarda Zəki Vəliyev, kamançada Elnur Mikayılov müşayiət ediblər. BMM solistlərinin çıxışları iştirakçıların sürəkli alqışları ilə qarşılanıb və konsert tədbirin rəsmi "Facebook" səhifəsi ilə canlı yayımlanıb. Musiqiçilərimiz proqram çərçivəsində növbəti günlərdə də səhnəyə çıxacaqlar.

Xatırladaq ki, festivalın təşkilat komitəsi BMM-i festivalın rəsmi tərəfdaşları sırasına daxil edib.

Xarici ölkələrin musiqi sahəsi üzrə qurumlar ilə əlaqələrin qurulması BMM-in prioritet istiqamətlərindən biridir. Bu günə kimi mərkəzin "Etnomusiqi inciləri" layihəsi çərçivəsində Yunanıstan, İtaliya, Avstriya, İsrail və bir sıra ölkələrin musiqiçiləri Azərbaycan muğam ifaçıları ilə birlikdə konsert proqramları təqdim ediblər. Eyni zamanda BMM-in təşkilatçılığı ilə İsveçrə, Fransa, Polşa, Çin, Mərakeş, Hindistan, Rusiya və Gürcüstana Azərbaycan musiqiçilərinin səfəri təşkil olunub.

**Lalə**

# "Hüseyn Cavid sənəti: ideallar və müasir dövr"

## Mütəfəkkir şair-dramaturqun 140 illiyinə həsr olunan beynəlxalq elmi konfrans





əvvəli səh. 1-də

"Ədibin ən böyük əsəri onun mənəvi baxımdan zəngin şəxsi həyatı olub. Cavidin həyatı və yaradıcılığı xeyirin şər üzərində qələbəsinə həsr olunub", – deyən Arif Həşimov Hüseyn Cavidin daim inandığı əqidəsinə sadiq qaldığını, sovet rejiminin sərt qadağalarına baxmayaraq, mənən sınmadığını bildirib. Qeyd edib ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü və səyləri ilə Hüseyn Cavidin nəşi uzaq Sibirdən Azərbaycana gətirilib, boya-başa çatdığı Naxçıvana aparılaraq torpağa tapşırılıb.

Konfransda çıxış edən mədəniyyət naziri Anar Kərimov Hüseyn Cavidin Azərbaycan ədəbiyyatına və mədəniyyətinin inkişafına böyük töhfələr vermiş görkəmli mütəfəkkir olduğunu deyib. Bildirib ki, Hüseyn Cavid sovet ideologiyasının ən amansız dövründə milli düşüncənin təbliğatını dayandırmayıb, ideallarının müdafiəsindən geri çəkilməyib. O, əsərlərində milli təfəkkürü, azərbaycançılıq məfkurəsini xüsusi vurğulayıb və buna görə də qorxunc rejim tərəfindən cəzalandırılıb.

Nazir qeyd edib ki, Cavidin yaradıcılığı nəinki ölkəmizdə, həmçinin Azərbaycandan kənarda, Türk dünyasında da ədəbi düşüncəyə, milli məfkurənin möhkəmləndirilməsinə öz təsirini göstərib. Hüseyn Cavidin pyesləri teatrlarımızın repertuarından düşməyib, neçə-neçə aktyor nəslinin yetişməsində mühüm rol oynayıb. Ulu öndər Heydər Əliyevin daim Hüseyn Cavid adını uca tutduğunu deyən nazir böyük dövlət xadiminin təşəbbüsü ilə ədibin cənazəsinin Sibirdən Azərbaycana gətirildiyini, Naxçıvanda məqbərəsinin, Naxçıvanda və Bakıda ev-muzeylərinin açıldığını bildirib. Qeyd olunub ki, həmin dövrdə sovet ideologiyasına qarşı çıxmış bir şəxsin nəşinin Azərbaycana gətirilməsi böyük iradə tələb edirdi. Bununla ümummilli lider daim milli-mənəvi dəyərlərimizə, ədəbiyyat xadimlərimizə qayğısını bir daha sübut etmiş olub.

Anar Kərimov vurğulayıb ki, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Hüseyn Cavidin 125, 135 və 140 illik yubileyləri dövlət səviyyəsində qeyd olunub, bu ilin mayında Vaşinqtondakı ABŞ-Azərbaycan Ticarət Palatasında böyük şairin barelyefinin açılışı keçirilib. Nazir Mədəniyyət Nazirliyi tərəfindən yubiley ilində həyata keçirilən və nəzərdə tutulan tədbirləri də diqqətə çatdırıb.

Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar bildirib ki, Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixinin ən böyük şəxsiyyətlərindən biridir və onun yaratdığı əsərlər teatr səhnəmizin əsasını təşkil edib, "Cavid teatrı" kimi düşüncələrimizə həkk olunub. Vurğulayıb ki, Hüseyn Cavid dövrün tələbləri və ziddiyyətlərinə qarşı çıxıb, öz dövrü ilə deyil, gələcəklə yaşayıb. Bunun nəticəsidir ki, onun "Topal Teymur", "İblis" və s. əsərləri bu gün də aktuallığını itirməyib.

Daha sonra AMEA Nizami adına Ədəbiyyat İnstitutunun baş direktoru, millət vəkili, akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatının romantik korifeyi Hüseyn Cavid sənəti və əbədiyyəti" mövzusunda məruzəsi dinlənilib. Qeyd olunub ki, milli romantik şeirin və mənzum faciənin banisi olan Hüseyn Cavidin əsərləri, eləcə də dramaturgiyası öz orijinallığı ilə fərqlənir və görkəmli ədib qısa müddət ərzində öz yaradıcılığı ilə ədəbiyyatımızda bir sıra yeniliklərin əsasını qoyub. O, Azərbaycan romantik şeirinə yeni yanaşma gətirib, "Bu gecə" şeiri ilə sonet janrının Azərbaycan formatını yaradıb, marş ruhlu şeirlər ərsəyə gətirib.

Konfransa videoformatda qoşulan Özbəkistan Milli Universitetinin professoru, filologiya elmləri doktoru Hamidullah Baltabayev, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin professoru, filologiya elmləri doktoru Nurboy Jabbarov, həmin universitetin dosenti Gülbahar Aşurova, Türkiyənin Balıkesir Universitetinin professoru Sebahattin Şimşir, Burdur M.A.Ersoy Universitetinin kafedra müdiri Canan Olpak Koç, həmçinin AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli, Hüseyn Cavidin Ev-Muzeyinin baş direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı, "Cavid ömrü" filminin yaradıcı kollektivi – Xalq artisti Ramiz Həsənoğlu, Əməkdar artist Dilarə Əliyeva və Vüsal Murtuzəliyev çıxış edərək beynəlxalq konfransın əhəmiyyətindən danışıb, ekran əsəri ilə bağlı fikirlərini bölüşüblər.

Həmçinin ulu öndərin 29 oktyabr 1996-cı ildə Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılışındakı nitqindən bir parça nümayiş etdirilib.

Sonra konfrans öz işini bölmə iclasları ilə başa vurub.

# "Yeni adlar" layihəsinin yeni mövsümdə ilk konserti

əvvəli səh. 1-də

Musiqi axşamının tamaşaçıları arasında Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova, mədəniyyət və incəsənət xadimləri vardı.

Orkestr tərəfindən Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra" və Rauf Hacıyevin "Qaytağı" əsərləri böyük ustalıqla ifa edildi.

Məhəmməd Xanlarov Hacı Xanməmmədovun "Tar və orkestr üçün 1 nömrəli konsert", Vaqif Təhməzov isə bəstəkarın "Tar və orkestr üçün 3 nömrəli konsert" əsərlərini təqdim etdilər. Orkestrin və gənc musiqiçilərin ahəngdar çıxışı tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

"Yeni adlar"ın budəfəki iştirakçılarını yaxından tanıyaq.

**Məhəmməd Xanlarov** 1996-cı ildə Bakı şəhərində anadan olub. 2005-ci ildə L. və M.Rostropoviçlər adına 21 saylı onbirillik Musiqi məktəbinə qəbul olunub. 2015-ci ildə Azərbaycan Milli Konservatoriyası (AMK) nəzdində Musiqi Kollecinin tar sinfini, 2019-cu ildə AMK-nın bakalavr, 2022-ci ildə isə magistr pilləsini tar ixtisası üzrə bitirib.

M.Xanlarov 2010-cu ildə xalq çalğı alətləri ifaçılarının II Respublika müsabiqəsində III dərəcəli diplomla təltif olunub. 2011-ci ildə milli musiqi alətləri ifaçılarının Respublika festivalında III dərəcəli, 2014-cü ildə III Respublika müsabiqəsində







I dərəcəli diplomlarla təltif edilib. Gənc tarzən Polşanın Volin şəhərində keçirilən XII Beynəlxalq müsabiqədə (2016) I yer və xüsusi mükafata, Antalyada (Türkiyə) keçirilən (2017) Beynəlxalq TV müsabiqə-festivalında "Qızıl ulduz" mükafatına layiq görülüb. Musiqiçi hazırda Azərbaycan Televiziya və Radiosunun Əhsən Dadaşov adına "Xatirə" xalq çalğı alətləri ansamblında fəaliyyət göstərir.

**Vaqif Təhməzov** 2000-ci ildə Bakı şəhərində anadan olub. 2018-ci ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini tar sinfi üzrə bitirib. Həmin il AMK-ya daxil olub. Hazırda konservatoriyanın magistrantıdır.

V.Təhməzov 2013-cü ildə Qara Qarayevin 95 illik yubileyinə həsr olunmuş "Təhlil və ifa edir gənc musiqiçilər" II Respublika elmi-ifaçılıq müsabiqəsində laureat adını qazanıb. 2017-ci ildə "Testene Art Baku" beynəlxalq incəsənət festival-müsabiqəsində 1-ci dərəcəli diploma təltif olunub. Eyni zamanda Bülbülün anadan olmasının 120 illik yubileyinə həsr edilən milli musiqi alətləri ifaçıları, xanəndələri və vokal ifaçılarının 3-cü müsabiqəsində laureat olub. 2018-ci ildə Hacı Xanməmmədovun 100 illiyinə həsr olunmuş xalq çalğı alətləri ifaçılarının I Respublika müsabiqəsi və 2019-cu ildə Gürcüstanda keçirilən "Harmony" beynəlxalq müsabiqəsində I yerləri qazanıb. 2020-ci ildə Çexiyada keçirilən "Crystal Star Praque" müsabiqəsi, həmin ildə Malta və Polşada təşkil olunan "Star Bridge" müsabiqəsində Qran-priyə, "Şuşa İli" və Bülbülün 125 illik yubileyinə həsr olunmuş respublika müsabiqəsində də baş mükafata layiq görülüb.

**Nurəddin**

# UNESCO-da Qarabağın mədəni irsinə dair məruzə və kitabın təqdimatı

əvvəli səh. 1-də

Konfransda Azərbaycan XİN-in xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov, ölkəmizin UNESCO-dakı daimi nümayəndəsi Elman Abdullayev, Gürcüstan Milli Muzeyinin direktoru, professor David Lordkipanidze, "Qarabağ xanlığı" kitabının həmmüəlliflər qrupunun rəhbəri Eldar Nadiradze, Roma Sapienza Universitetinin tədqiqatçısı Daniyel Pomiyer Vinçelli, fransız jurnalist Jan-Mişel Brun çıxış ediblər.

Konfransda Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri Səbuhi Əhmədovun "Gürcüstan Milli Muzeyinin eksponatları Qarabağın Azərbaycan etno-mədəni irsinin öyrənilməsində mənbə kimi" adlı məruzəsi dinlənilib.

Məruzədə 1903-1912-ci illərdə Qarabağda toplanan və o vaxt çar Rusiyasının Qafqazdakı idarəçiliyinin mərkəzi olan Tiflis şəhərindəki arxivlərə yığılan, hazırda Gürcüstan Milli Muzeyində saxlanılan eksponatların elmi-mədəni əhəmiyyətindən bəhs edilib. Qeyd olunub ki, həmin dövrdə Tiflisdəki Qafqaz Muzeyi üçün toplanan etnoqrafik eksponatlar birmənalı olaraq Qarabağda uzun əsrlər boyu Azərbaycan mədəniyyətinin üstün mövqeyini və dərin tarixi köklərini sübuta yetirir. Kolleksiyada olan geyimlər, silahlar, mis qablar, zərgərlik məmulatları, xalçalar və s. Azərbaycan xalqının milli-mədəni irsinin vacib tərkib hissəsidir.



Konfransda "Qarabağ xanlığı: tarixi və mədəni kimlik" kitab-albomu da maraqla qarşılanıb. Qeyd edək ki, nəşrdə çar Rusiyası dövründə Qarabağda həyata keçirilən hərbi və elmi ekspedisiyalar zamanı toplanan 300-dən çox artefaktın fotoları təqdim olunur.

Tbilisi Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Dimitri Şvelidze kitaba yazdığı ön sözdə diqqətə çatdırır ki, hazırkı Gürcüstan Milli Muzeyinin əsası 1852-ci ildə Rus Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsi tərəfindən qoyulub və o, 1867-ci ildə Qafqaz Muzeyinə çevrilib. Hazırda muzeydə yer alan kolleksiyaların toplanmasında 1875, 1905 və 1912-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində aparılan ekspedisiyaların böyük əhəmiyyəti olub.

Ən maraqlı məsələlərdən biri də odur ki, bu artefaktlar Gürcüstan Milli Muzeyinin arxivinə təhvil verildikdən sonra müəyyən səbəblərdən heç vaxt açılmayıb və bir əsrdən artıq müddətdə arxivdə kataloqlaşdırılmadan saxlanılıb, ilk dəfə nəşr olunub. Bu artefaktların tarixi və mədəni əhəmiyyəti Qarabağın Azərbaycan kimliyini maddi faktlarla sübuta yetirir.

Nəşrdə Gürcüstan Milli Muzeyinin fondunda saxlanılan Qarabağ xanlığının bayrağı, Qarabağ xanları sülaləsi tərəfindən qorunmuş Şah İsmayılın qalxanı, həmçinin XIX əsr Şuşa şəhərinin görüntülərini əks etdirən fotolar da xüsusi maraq doğurur.

# Akademik İsa Həbibbəyli AMEA-nın prezidenti seçilib

Oktyabrın 25-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ümumi yığıncağı keçirilib. Yığıncaqda Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, AMEA Rəyasət Heyətinin üzvləri, akademiyanın həqiqi və müxbir üzvləri iştirak ediblər.

AMEA-nın prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov gündəlikdəki məsələləri diqqətə çatdırıb.

Ümumi yığıncağın müzakirəsinə çıxarılan ilk məsələ AMEA-nın yeni Nizamnamə layihəsinin təsdiq edilməsi haqqında olub.

Akademik Arif Həşimov xatırladıb ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanına əsasən həyata keçirilən əsaslı struktur dəyişikliyi ilə əlaqədar AMEA-nın yeni Nizamnamə layihəsi hazırlanıb.

Akademiyanın vitse-prezidenti, akademik İsa Həbibbəyli AMEA-nın yeni Nizamnamə layihəsini təqdim edib. Bildirib ki, yeni Nizamnamə akademiyanın işinin və elmi fəaliyyətinin yenidən təşkili ilə əlaqədar məsələləri, elmi-təşkilati proseslərin tənzimlənməsi mexanizmlərini əks etdirir. 14 maddədən və 228 bənddən ibarət olan yeni Nizamnamə layihəsində akademiyanın strukturu, vəzifələri və hüquqları, akademiyanın Ümumi yığıncağının, Rəyasət Heyətinin, elmi bölmələrin, regional elmi mərkəzlərin, elmi müəssisələrin, elmi-xidmət müəssisələrinin fəaliyyət istiqamətləri müəyyən olunub, akademiyaya seçkilərlə əlaqədar məsələlərə dair prosedurlar əhatə edilib.

Açıq səsvermə ilə AMEA-nın yeni Nizamnamə layihəsi təsdiq edilib.

Ümumi yığıncağın gündəliyindəki növbəti məsələ AMEA-nın prezidenti vəzifəsinə seçki ilə bağlı olub. Arif Həşimov bu vəzifəyə akademik İsa Həbibbəylinin namizədliyini təklif edib.

Akademiklər Akif Əlizadə, İsmayıl Hacıyev, Zemfira Səfərova, Kamal Abdullayev və AMEA-nın müxbir üzvü Misir Mərdanov çıxış edərək İsa Həbibbəylinin zəngin elmi-təşkilati fəaliyyəti, elm və təhsilin intreqrasiyası və inkişafı sahəsində bu günə qədər gördüyü işlər barədə fikirlərini bildirib, onun namizədliyini dəstəkləyiblər.

Sonra gizli səsvermə keçirilib. Səsvermənin nəticəsinə əsasən, akademik İsa Həbibbəyli yekdilliklə AMEA-nın yeni prezidenti seçilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin iyulun 28-də imzaladığı sərəncamla AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri, Kimya Elmləri, Yer Elmləri, Biologiya və Tibb Elmləri bölmələri, habelə Naxçıvan və Gəncə bölmələri üzrə ümumilikdə 37 müəssisə – institutlar, elmi istehsalat birlikləri və s. yeni yaradılan Elm və Təhsil Nazirliyinin tabeliyinə verilib. Sentyabrın 30-da Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq AMEA-nın yeni strukturunda əsasən humanitar elm sahələrini əhatə edən 22 müəssisə var.

# Ölkəmiz Asiya Hekayəçilik Komitəsinə daimi üzv olub

21-22 oktyabr tarixlərində Koreya Respublikasının Kvanju şəhərində Asiya Hekayəçilik Komitəsinin 14-cü iclası keçirilib.

Asiya Mədəniyyət Mərkəzinin dəvəti ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndəsi Akif Marifli komitə iclasında müşahidəçi qismində iştirak edib.

İclasda komitənin son bir il ərzində fəaliyyətinə dair hesabat dinlənilib, gələcək fəaliyyətlə bağlı müzakirələr aparılıb. İclasda Azərbaycan komitənin daimi üzvü seçilib.




Qeyd edək ki, Asiya Hekayəçilik Komitəsi Koreya Respublikası Mədəniyyət, İdman və Turizm Nazirliyinin nəzdindəki Asiya Mədəniyyət Mərkəzinin vasitəçiliyi ilə 2009-cu ildə Mərkəzi Asiya ölkələrinin (Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan) aidiyyəti nazirlikləri ilə əməkdaşlıq çərçivəsində yaradılıb. Asiya Mədəniyyət Mərkəzi fəaliyyətini Asiya mədəniyyəti ilə bağlı mübadilə, təhsil, tədqiqat və digər istiqamətlər üzrə həyata keçirir.

# "Rossotrudniçestvo" "Qarabağa kitabla gedək!" kampaniyasına qoşulmaq istəyir

Oktyabrın 24-də Rusiyanın MDB ölkələri, xaricdə yaşayan həmvətənlərlə iş üzrə Federal Agentliyi olan "Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyinin rəhbəri İrek Zinnurov Azərbaycan Milli Kitabxanasında olub.



Kitabxananın direktoru Kərim Tahirov qonağı salamlayaraq iki qonşu ölkə arasında daim mədəni əlaqələrdə kitabxana işi sahəsində əməkdaşlığın da önəmini vurğulayıb. Ötən il M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanası ilə əməkdaşlıq haqqında memorandumun imzalandığını, cari ilin sonunda Rusiya Dövlət Kitabxanası müvafiq memorandumun müddətinin uzadılacağını diqqətə çatdıran Kərim Tahirov, bununla belə, son 2 ildə pandemiya səbəbindən Rusiyadan yeni kitabların alınmasında müəyyən problemlərin olduğunu deyib.

İrek Zinnurov Milli Kitabxana ilə birgə aksiyaların, tədbirlərin mümkünlüyündən söz açıb. O, həmçinin bu yaxınlarda VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Milli Kitabxanada keçirilən dəyirmi masa zamanı Kərim Tahirovun xarici qonaqlara "Qarabağa kitabla gedək!" kampaniyasına qoşulmaq çağırışı etdiyini xatırladaraq, tələbat olan rus ədəbiyyatını bu fonda hədiyyə edə biləcəklərini vurğulayıb. "Rossotrudniçestvo"nun nümayəndəsi kitabxananın Rusiya nəşriyyatları, müəllifləri ilə əlaqələrinin qurulmasına kömək edəcəklərini də söyləyib.

Sonda Kərim Tahirov tərəfindən qonağa Milli Kitabxana və Azərbaycanın tarixi-mədəni irsi ilə bağlı nəşrlər hədiyyə edilib.



# Yerlərdə mədəni həyat və fəaliyyət günün tələblərinə cavab verirmi?

## Nazir Anar Kərimov Masallı və Cəlilabadda mədəniyyət müəssisələrinə baxış keçirib

Xəbər verildiyi kimi, mədəniyyət naziri Anar Kərimov oktyabrın 20-də Masallı rayon Heydər Əliyev Mərkəzində vətəndaşların qəbulundan sonra rayondakı bir sıra mədəniyyət müəssisələrinə və tarixi-mədəni abidələrə baş çəkib.

Müəssisələrin fəaliyyəti, cari vəziyyəti və maddi-texniki imkanları haqqında məlumat alan Anar Kərimov işin günün tələblərinə uyğun qurulması ilə əlaqədar tapşırıq və tövsiyələrini verib.

Nazir öncə Masallı şəhər İncəsənət məktəbinin fəaliyyəti ilə tanış olub. Məlumat verilib ki, məktəb 1964-cü ildən musiqi, 1989-cu ildən isə incəsənət məktəbi kimi fəaliyyət göstərib. 2016-cı ildə dövlət başçısının iştirakı ilə təhsil ocağı üçün müasir və geniş binanın açılışı olub. Həmin ildən onbirillik tədris həyata keçirilən məktəbdə fortepiano, tar, kamança, qarmon, balaban, xanəndəlik, rəssamlıq və xoreoqrafiya ixtisasları üzrə 304 şagird təhsil alır, 70 müəllim çalışır.

Anar Kərimov Masallı Tarix-Diyarşünaslıq Muzeyinə baxış keçirib. Məlumat verilib ki, 1963-cü ildə fəaliyyətə başlayan muzeyin hazırkı üçmərtəbəli binası 2016-cı ildə ölkə başçısının iştirakı ilə açılıb. Nəqqaşlıq, qrafika, heykəltəraşlıq, tətbiqi incəsənət, arxeologiya, numizmatika, etnoqrafiya, fotoşəkillər və sənədlər bölmələrindən ibarət muzeyin fondunda 9047 eksponat mühafizə edilir, onlardan 900-ə yaxını daimi sərgilənir. Nazir 1984-cü ildə yaradılan və hazırda muzeyin binasında yerləşən Masallı Dövlət Rəsm Qalereyasının fəaliyyəti ilə də tanış olub.

Masallı rayon MKS-nin Mərkəzi Kitabxanasına gələn Anar Kərimova kitabxananın fəaliyyəti, kitab fondu, oxucu sayı barədə məlumat verilib.

Masallıda XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidələri olan tarixi hamam və Cümə məscidinə də baxış keçirilib.

Daha sonra Masallı rayon Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzinə gələn Anar Kərimovu mərkəzin qarşısında "Halay" və "Həcər" kollektivləri musiqi sədaları ilə qarşılayıblar. Mədəniyyət ocağı ilə tanışlıq zamanı bildirilib ki, 1956-cı ildən fəaliyyət göstərən binada 2011-2013-cü illərdə əsaslı təmir işləri aparılıb. Nazir mərkəzdə xalq tətbiqi sənəti nümunələrinin hazırlanma prosesini, "Cənub incisi" ansamblının müşayiəti ilə mərkəzin solistlərinin ifasında konsert proqramını izləyib.

***

Mədəniyyət naziri Anar Kərimov oktyabrın 21-də Cəlilabad rayonuna səfər edib. Qeyd edək ki, bölgələrə bu qəbil səfərlər Mədəniyyət Nazirliyi sistemində fəaliyyətin və idarəçiliyin təkmilləşdirilməsi, yerlərdəki mədəniyyət müəssisələrində işin effektivliyinin artırılması məqsədilə həyata keçirilir.

Nazir Anar Kərimov və rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov əvvəlcə Cəlilabad şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.



Sonra nazir Cəlilabad rayon Heydər Əliyev Mərkəzinə baş çəkib. 2015-ci ildən fəaliyyət göstərən mərkəzin ekspozisiyasında ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən kitablar, fotolar, o cümlədən Cəlilabada səfərlərinin əks olunduğu şəkillər, digər sənədlər nümayiş olunur.

Nazir Cəlilabad Dövlət Rəsm Qalereyasına da baş çəkib. Məlumat verilib ki, 1985-ci ildə yaradılan qalereyada hazırda 218 eksponat mühafizə olunur.

Cəlilabad Tarix-Diyarşünaslıq Muzeyinə və rayon MKS-nin Mərkəzi Kitabxanasına da baxış keçirilib. 1981-ci ildə yaradılan muzeyin fondunda 4918 eksponat var. Muzeyin yeni binası 2010-cu ildə istifadəyə verilib. Cəlilabad rayon Mərkəzi Kitabxanası isə 1930-cu ildə yaradılıb.

Sonra nazir Cəlilabad şəhər Uşaq İncəsənət Məktəbində olub. Bildirilib ki, tədris müəssisəsi 1969-cu ildə yeddiillik musiqi məktəbi kimi fəaliyyətə başlayıb, 1982-ci ildən incəsənət məktəbi kimi fəaliyyətini davam etdirir. Məktəbdə fortepiano, tar, kamança, xanəndəlik, qarmon və rəssamlıq ixtisasları tədris olunur, 270 şagird təhsil alır, 50 müəllim çalışır.

Anar Kərimov Cəlilabad şəhərində XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidələri olan tarixi hamama və Hasıllı kəndində yerləşən məscidə də baş çəkib.

Daha sonra mədəniyyət naziri Cəlilabadda Şəhidlər xiyabanını və Vətən müharibəsi şəhidlərinin xatirəsinə inşa olunmuş abidə kompleksini ziyarət edib, abidənin önünə gül dəstələri düzərək qəhrəman oğulların xatirəsinə ehtiramını bildirib.

Rayonun Göytəpə şəhərindəki yerli əhəmiyyətli tarixi abidəni – pravoslav kilsəsini də ziyarət edən Anar Kərimova tikili haqqında məlumat verilib. Bildirilib ki, məxsusi memarlığı ilə seçilən Göytəpə pravoslav kilsəsi 1878-ci ildə inşa olunub. Tikinti yerli ustalar tərəfindən aparılıb, o cümlədən pəncərələr Azərbaycan milli memarlıq üslubunda hazırlanıb.

Səfər çərçivəsində Cəlilabad rayon Privolnoye kənd Mədəniyyət evinə və həmin binada fəaliyyət göstərən MKS-nin kənd kitabxana filialına da baxış keçirilib. Məlumat verilib ki, 1977-ci ildə istifadəyə verilən müəssisənin binası 400 nəfərlik tamaşa zalı, 100 yerlik iclas zalı olmaqla, ümumilikdə, 17 otaqdan ibarətdir.



Sonra Göytəpə şəhər Musiqi məktəbinə gələn Anar Kərimov təhsil ocağının fəaliyyəti haqqında məlumat alıb. Qeyd olunub ki, 1989-cu ildən fəaliyyət göstərən məktəbdə fortepiano, tar və qarmon ixtisasları üzrə 94 şagird təhsil alır, 14 müəllim çalışır.

Nazir mədəniyyət müəssisələrin fəaliyyətin günün tələblərinə uyğun qurulması ilə əlaqədar tapşırıq və tövsiyələrini verib.

***

Nazir Anar Kərimov oktyabrın 21-də Cəlilabad rayon Heydər Əliyev Mərkəzində Masallı, Cəlilabad və Yardımlı rayonlarında fəaliyyət göstərən mədəniyyət işçiləri ilə görüş keçirib. Görüşdə nazirliyin məsul əməkdaşları da iştirak ediblər.

Nazir çıxış edərək bildirib ki, müntəzəm olaraq bölgələrə səfərlərinin əsas məqsədi yerlərdə mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olmaq, mövcud imkanları müəyyənləşdirmək, mədəniyyət və incəsənət sahəsində çalışan şəxsləri nazirliyin prioritetləri və qarşıya qoyulan məqsədləri barədə yerində məlumatlandırmaqdır. Eyni zamanda bu sahədə fəaliyyət göstərən insanların nazirlik tərəfindən aparılan islahatlara cəlb edilməsi, onların mədəniyyət sahəsinin dayanıqlı inkişafına töhfə verməsinə nail olmaq əsas vəzifələrdəndir.

Görüş zamanı mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, onların həlli yolları ilə bağlı təkliflər dinlənilib.

Anar Kərimov bildirib ki, bölgələrdə fəaliyyət göstərən mədəniyyət işçiləri dövrün tələbləri ilə ayaqlaşmalıdır. Bunun üçün peşəkarlıq səviyyəsi və təşəbbüskarlığın artırılması zəruridir.

Nazir çıxışının sonunda problemlərin aradan qaldırılması, müəssisələrin daha da səmərəli fəaliyyətinin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

Görüşdən sonra nazir Anar Kərimov mədəniyyət işçiləri ilə birlikdə Cəlilabad rayon Mədəniyyət Mərkəzi nəzdində fəaliyyət göstərən Xalq teatrının tamaşasına baxıb.

# "Səma şairi"nin 140 illiyi münasibətilə

Ağstafa RMİ Tovuz rayon MKS-nin Mərkəzi Kitabxanası A.S.Puşkin adına şəhər tam orta məktəbində "Hüseyn Cavid – 140" mövzusunda tədbir təşkil edib. Hüseyn Cavidin həyat və yaradıcılığı haqqında şagirdlərə ətraflı məlumat verilib. Sonra şagirdlər ədibin kitablarından ibarət sərgi ilə tanış olublar.

Qazax MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Mənim tanrım gözəllikdir, sevgidir" adlı tədbir keçirib. Məktəblilər şairin "İlk bahar", "Qız məktəbində", "Mənim tanrım" şeirlərini söyləyiblər.

***

Gəncə RMİ Gəncə şəhər MKS-də "XX əsr Azərbaycan mütərəqqi romantizminin banisi" adlı tədbir keçirilib. Kitabxanaçı Səbinə Piriyeva şairin həyat və yaradıcılığı haqqında söz açıb. Sonra "Hüseyn Cavid – 140" başlığı altında kitab sərgisi nümayiş olunub.

MKS-nin 13 saylı kitabxana filialı isə "XX yüz il bədii fikrimizin mərdlik və əyilməzlik simvolu – Hüseyn Cavid" başlıqlı tədbir təşkil edib. Şagirdlər şairin şeirlərindən nümunələr səsləndiriblər.

# Tarixi tikili ətrafında təmizlik-abadlıq işləri görülüb



Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi, Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin iştirakı ilə oktyabrın 21-də paytaxtın Novxanı qəsəbəsində yerləşən Şah Sultan Hüseyn məscidinin ətrafında təmizlik aksiyası keçirilib.

Aksiyada Dövlət Xidmətinin rəisi Azad Cəfərli, Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Səadət Xələfbəyli, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev və sözügedən qurumların əməkdaşları iştirak ediblər.

XVII əsrdə inşa olunan məscidin ətrafı məişət tullantılarından təmizlənib, ərazidə abadlıq işləri görülüb.

Dövlət Xidmətinin mətbuat xidmətindən verilən məlumata görə, yerli əhəmiyyətli tarix-memarlıq abidəsi olan Şah Sultan Hüseyn məscidinin yaxın zamanda bərpasına başlanılması planlaşıdırılır. Bunun üçün hazırlıq işlərinə başlanılıb.

Aksiya iştirakçıları daha sonra yeni bərpa-konservasiya olunan XIX əsrə aid hamama baxış keçiriblər. Tarixi abidənin turizm baxış obyekti kimi istifadə olunması planlaşdırılır.

Tarixi abidlərin qorunması, ətraf-mühitin mühafizəsi, yaşıllıq zonalarının təmizlənib genişləndirilməsi, ekoloji tarazlığın bərpası, eləcə də vətənaşlarımızın mədəni irs nümunələrinə diqqətinin daha da artırılması məqsədi daşıyan aksiyanın davamlı təşkil olunması nəzərdə tutulur.

**Hazırladı: N.Məmmədli**

# Bölgələrdə "Şuşa İli" tədbirləri davam edir



Sumqayıt Regional Mədəniyyət İdarəsi (RMİ) Sumqayıt Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə şəhər Heydər Əliyev Mərkəzində "Şuşa İli" çərçivəsində şəhid və qazi ailə üzvlərinin əl işlərindən ibarət "Şuşa inciləri" adlı xeyriyyə satış-sərgisi keçirilib. Yazıçı Hafiz Ataxanlı şəhid məqamının ucalığından danışıb, şəhid və qazi övladlarının sərgisinin əhəmiyyətini vurğulayıb.

RMİ-nin rəisi Rəşad Əliyev Sumqayıtın mədəni mühitində davamlı olaraq bu qəbildən tədbirlərin keçirilməsini yüksək qiymətləndirib.

Xalq artistləri, aktyorlar Nurəddin Mehdixanlı, Əli Nur, Azərbaycan Yazıçılar Birliyi Sumqayıt bölməsinin rəhbəri Gülnarə Cəmaləddin və Bakı Dövlət Universiteti İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Yeganə Mirzəyeva satış-sərgini şəhidlərin ruhuna ehtiram, qazilərimizə diqqət kimi səciyyələndiriblər.

Bədii hissədə Sumqayıt şəhər F.Əmirov adına 5 nömrəli Uşaq musiqi məktəbinin "Buta" qızlar ansamblı və şəhər Heydər Əliyev Mərkəzinin əməkdaşları vətənpərvərlik ruhunda musiqi nömrələri ilə çıxış ediblər.

Sərgidə 14 müəllifin 60-dan çox əl işi nümayiş olunub.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin 15 saylı kitabxana filialında "Qarabağın incisi – Şuşa" başlığı altında rəsm saatı təşkil edilib.

***



Sabirabad RMİ Saatlı rayon Heydər Əliyev Mərkəzində Şuşanın 270 illik yubileyinə həsr olunan bilik yarışması təşkil edilib. Azərbaycanın tarixi, mədəniyyəti, xüsusən işğaldan azad olunan ərazilərimizlə bağlı mövzuları əhatə edən yarışmada orta və ümumi orta olmaqla 8 məktəbin şagird və müəllim kollektivi iştirak edib.

***



Bərdə RMİ Bərdə Dövlət Rəsm Qalereyasında "Könlüm keçir Qarabağdan" adlı tədbir keçirilib. İdarə rəisi Vəsilə Möhsümova "Şuşa İli" münasibətilə regional idarələr tərəfindən keçirilmiş tədbirlərdən, Qarabağın zəngin mədəni irsinin qorunub saxlanılması və təbliği istiqamətində görülən işlərdən danışıb. Bədii hissədə Vətənimizi və mədəniyyət paytaxtımız Şuşanı vəsf edən mahnılar ifa olunub, məktəblilər vətənsevərlik mövzusunda şeirlər səsləndiriblər.

***

Şəki RMİ Zaqatala rayon Mədəniyyət Mərkəzinin Suvagil kənd Folklor evində "Qarabağın tacı, Zəfərin rəmzi" adlı tədbir təşkil olunub. Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə dövlət başçısının "Şuşa İli" ilə bağlı sərəncamının əhəmiyyətini qeyd edib. Sonra Vətənə, işğaldan azad olunmuş doğma Qarabağa aid şeirlər səsləndirilib, mahnılar ifa olunub.

# Qusar Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yubileyi qeyd olunub



Xaçmaz Regional Mədəniyyət İdarəsi (RMİ) Qusar Rayon Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyətə başlamasının 40 illiyinə həsr olunan tədbir keçirilib.

Tədbirdə Xaçmaz RMİ-nin rəisi Vüsal Hüseynov, Qusar Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Elman Mustafayev, YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

"40 illik fəaliyyətin qısa hesabatı" adlı videoçarx nümayiş etdirildikdən sonra "Şuşa İli", "Bacarıqlı əllər" və "Yaxın keçmiş" adlı sərgilər təqdim olunub.

RMİ-nin rəisi Vüsal Hüseynov bildirib ki, Azərbaycanda milli-mənəvi dəyərlərimizə, o cümlədən muzey işinə daim dövlət qayğısı var. Ölkəmizdə muzey işinin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider tərəfindən bu sahədə müəyyən edilmiş prioritetlər Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir.

Yubiley münasibətilə muzeyə regional idarənin fəxri fərmanı və hədiyyəsi təqdim olunub. Tədbir milli folklor nümunələrindən ibarət bədii hissə ilə davam edib.

# Lənkəran teatrında gənc aktyorlar üçün ustad dərsləri



16-20 oktyabr tarixində Lənkəran Dövlət Dram Teatrında gənc aktyorlar üçün ustad dərsləri təşkil edilib.

Mədəniyyət Nazirliyinin "Öyrədərək öyrənirəm" layihəsi çərçivəsində "Stanislavski sisteminin psixofizik etapları" mövzusunda gerçəkləşən beşgünlük məşğələləri Boris Şukin adına Moskva Teatr Akademiyasının məzunu, Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktyoru Abdulla Eyvazlı aparıb.

Məşğələlərin sonuncu günündə yekun imtahan proqramı zamanı gənc aktyorlar A.P.Çexovun "Təklif" vodevilində "təxmin edilmiş vəziyyətlərdə obrazla etüdlər"i nümayiş etdiriblər.

Abdulla Eyvazlı gənc aktyorlardan razı qaldığını bildirərək, yaradılmış şəraitə görə Mədəniyyət Nazirliyinə və teatrın rəhbərliyinə minnətdarlığını çatdırıb.

Qeyd edək ki, "Öyrədərək öyrənirəm" layihəsi üzrə ustad dərslərinin digər bölgə teatrlarında da davam etdirilməsi nəzərdə tutulub.

# Əsas odur bəxti yardır...



"Əs-səlamü əleyküm", "Çox sağ olasan", "Ay həmişə sən gələsən", "Nə olar, nə olar, təki canın sağ olsun"... deyə-deyə, özünəməxsus şivə və ədası ilə çoxdan tanıdıqlarını da, özünü təzəcə ona tanıdanları da salamlayır, bağrına basır, mehribanlığını bildirir. Beləcə, bu bəstəboy, saç-saqqalı ağarmış dərvişsayağı kişi üzündəki səmimi təbəssümü hamı ilə səxavətlə bolüşür. Əslində, çoxdanışan olmadığından, sözündən əvvəl hərəkəti "dilləndiyindən" ondan çox elə canfəşanlıq gözləyən də yoxdur. Əksəriyyəti sənət dostları, tələbə yoldaşlarıdır deyə bir-birlərini bir baxışdan anlayırlar. Qonaqlarını nəzərləri ilə yerbəyer edir. Özünü hələ də müəllimi qarşısında imtahan verirmiş kimi hiss edən artıq saç ağartmış tələbələri də (keçmiş və indiki aktyorları) hərbçi nizamı ilə düzülürlər...

Bu məqamda sonra deyəcəyimi də indi deyim, canımı qurtarım. O mərasimdə, məhz o an mənə elə gəldi ki, teatrlar onları yaradanlarla yaşayır, yalnız onların ömürlüyünə bağlı qalırlar. Məhz bu ağır gerçəyi, cansıxıcı həqiqəti təngnəfəs halda qəbul etdiyimdən ön sıradakı yerinə yenicə oturan sənətkara uzun, çox uzun ömür arzulayıram. Üstəlik içimdəki bu kədər yükünü qovmaq üçün nəzərlərimi "Bəxtiyar Xanızadə – 65" lövhəsinə dikirəm...

Məncə, oktyabrın 20-də C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Tarixi Muzeyinə – Xalq artisti, görkəmli səhnə xadimi, Azərbaycan Dövlət Pantomima Teatrının yaradıcısı, bədii rəhbəri və baş rejissoru Bəxtiyar Xanızadənin 65 illik yubiley tədbirinə toplaşan hər kəsin qəlbinin dərinliyində bu nigarançılıq vardı.

Muzeyin munis ekspozisiya zalına toplaşanlar özlüyündə mizansız, şəkilsiz, pərdəsiz bir tamaşa hasil etmişdilər. Azərbaycan kino, teatr, mədəniyyət sahəsinin cavanından yaşlısına – seçkin insanları yığılmışdı Xanızadənin başına. Aralarında özünə ustad saydıqları vardı, ustadı olduqları...

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova ənənəvi tədbirdən fərqli bir yubiley ovqatı üçün Bəxtiyar Xanızadənin kövrək qəlbinə, zərif duyğularına toxuna biləcək dostlar "çələngi"ni bir araya gətirmək istədiklərini dedi.

Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova milli teatr tarixində özünəməxsus yeri olan Bəxtiyar Xanızadənin yaradıcısı olduğu Pantomima teatrının müxtəlif beynəlxalq festivallarda səhnə sənətimizi daim layiqincə təmsil etdiyini vurğuladı, bu işdə ustadın böyük əməyinə diqqət çəkdi.

Sənətkarın ömür yolunun müxtəlif məqamlarının toplandığı qısa videoçarx göstərildi. Bu sayədə biz 50-ci illər Bakısında, Şağan kəndində doğulan, saf uşaqlıqdan böyük səhnəyə, kinoekrana, televiziyaya adlayan, sənətin ağır-yüngül sınaqlarından sükutla çıxan və şöhrətə misqal-misqal çatan 65 illik yolu anlara sığdıra bildik.

Xalq artisti Oqtay Mir Qasım kinomuz üçün fərqli sima, obraz, ifa manerası olan aktyor kimi kəşf etdiyi səbəbkardan – "Ofsunçu"dakı Rəsuldan, "Günaydın, mələyim!"dəki Qonaqdan danışdı. Onunla işləməyin zövqünü, rejissor-aktyor mübadiləsinə özünəməxsusluğunu önə çəkdi.

Xalq artisti Ramiz Həsənoğlunun təbrikində daha çox teatr, üslub yaradan adama sevgi hakim idi. "Bəxtiyar Xanızadə kimi nadir istedadlar çox az yetişir" deyən rejissor onun "Qərib cinlər diyarında", "Ovsunçu", "Cavid ömrü", "Sübhün səfiri" kimi bədii filmlərdəki rollarından bəhs etdi.

Teatrşünas, Əməkdar incəsənət xadimi Aydın Talıbzadə pedaqoq, teatr yaradıcısı Bəxtiyarın sənətkarlıq məziyyətlərindən danışdı. Onun formalaşdırdığı səhnə ənənəsinə toxundu. Sonra ayrı-ayrı filmlərdəki rollarını yada saldı, aktyor kimi koloritli oyunundan müqayisələr apardı.

Yubilyarın tələbə yoldaşı, Xalq artisti, Akademik Milli Dram Teatrının aktyoru Nurəddin Mehdixanlı qonaqları keçmişə səslədi. Qayğısız tələbəlik illəri ilə bağlı xatirələrini bölüşdü.

Əməkdar mədəniyyət işçisi, Azərbaycan Dövlət Kukla Teatrının direktoru Rəşad Əhmədzadə isə dostunun ləyaqəti, şəxsiyyəti və xarakteri sayəsində nəinki yetirmələri, ümumən sənət sahəsi üçün nümunə olacaq keyfiyyətlərini sadaladı.

Ssenarist, yazıçı-dramaturq İlqar Fəhmi isə sənəti müqəddəs məqama ucaldıb, orada sevən və sevdirən böyük gücə malik Bəxtiyar Xanızadənin yaratmaq səadətindən ağızdolusu danışdı.

Sənətdə də, həyatda da yaxşı dost, sirdaş və ən əsası da başqasının uğuruna ürəkdən sevinə bilən Bəxtiyar Xanızadənin insani yönlərini də Xalq artisti, Yuğ Dövlət Teatrının aktyoru Məmməd Səfa saydı.

Keçmiş mimçi Əməkdar artist, Gənc Tamaşaçılar Teatrının quruluşçu rejissoru Nicat Kazımov müəllimini əsl tələbə həyəcanı ilə təbrik etdi. Ondan öyrəndikləri ilə çıxdığı yoldan bütün çətinliklərə rəğmən heç vaxt dönmədiyini xatırlatdı.

Növbə yubilyarın ayrı-ayrı vaxtlarda quruluş verdiyi, müxtəlif səbəblərdən artıq repertuarda olmayan və bu sayədə səhnədən deyil, soyuq ekrandan baxmaqla ovunduğumuz bənzərsiz pantomima tamaşalardan parçalara çatdı. "Nağaraçılar", "Pantomima buketi", "Gəldim ki, olam ğəmin hərifi", "Uçuş", "Manqurt", "Dulusçu", "Zibillik pərvanələri", "Samurayın ölümü", "Eşq", "Maska", "Kesa və Morito"dan seçilən parçalar bir anlıq hamını zaman üzərindən səyahətə apardı.

Zaman-zaman yolu Xanızadə ilə kəsişən kukla rejissoru Elşad Rəhimzadə isə təbrikini səhnəciklə etdi.

Son sözü, sözsüz ki, yenə o dedi. Bəxtindən az-az yarıdığını etiraf edən, 60-dan sonra özü qarışıq hamıdan tez-tez küsən, yaşı ötdükcə kövrəkləşən, uşaq kimi dəymədüşər, qoca kimi deyingən bəzi səhnədaşlarından fərqli olaraq daha nikbin, xeyli də məmnun danışdı.

Çıxışçıları diqqətlə dinlədiyini, hər sözdən söz tutduğunu, bu yaşdan sonra heç də hər şeylə hesablaşmadığını əyan-bəyan edəndən sonra ənənəsinə sadiq qalıb ilk tələbələrini yanına yığdı. Arabir zamanında geniş olan həlqədən qopanların da adlarına "toxundu". Beləcə, danışmaqdan usanmışların ocağından od aparanlardan hələ də o atəşdə yananlara qədər hamısını sadaladı.

Yubileyin musiqili qonaqları da var idi. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistlərinin rəngarəng ifaları alqışlarla qarşılandı.

Beləcə, xoş sözlərin, saf gülüşlərin, təmənnasız sevgilərin əhatəsində daha da bəxtiyar göründü sənətinin bəxti yar olan...

Əslində, bu bəxt, tale məsələsi bir az mübahisəlidir. Amma söz səhnədən, sənətdən gedirsə, bunun düsturu sadədir: sənətini sevirsənsə və sevginin qarşılığı olan səadətə çatırsansa, xoş halına. Bu mənada Bəxtiyar Xanızadə bəxti özünə yar sənətkardır. Çünki bu ömrü, özünün də dediyi kimi, ötən zamanın hər saniyəsinə mismar çalıb, iz qoymaqla yaşayıb...

**Həmidə**

## Salyanlı kuklaçılardan pantomim tamaşa



Salyan Dövlət Kukla Teatrının yaradıcı heyəti iki yeni səhnə nümunəsi üzərində çalışır.

İngilis yazıçısı Redyard Kiplinqin "Mauqli" nağılı əsasında eyniadlı tamaşaya rejissor Rafiq Mirzə quruluş verir. Xanımana Əlibəylinin "Dovşanın ad günü" adlı mənzum nağılını isə Əməkdar mədəniyyət işçisi Laləzar Hüseynova səhnələşdirir. Hər iki tamaşa noyabrın sonlarında təqdim ediləcək.

Salyan kuklaçıları gələn ay paytaxtda keçiriləcək "4.4" Qısa Tamaşalar Festivalında da təmsil olunacaqlar. Heyət sənət yarışında "Sülh naminə birləşək!" adlı pantomim tamaşasını (quruluşçu rejissor – L.Hüseynova) nümayiş etdirəcək.

## Qiraətçilər üçün "Zəfər sədası"

Azərbaycan Teatr Xadimləri İttifaqı Mədəniyyət Nazirliyi ilə birgə növbəti layihəyə başlayır.

Noyabrın 4-də 44 günlük Vətən müharibəsində tarixi Qələbəmizin 2-ci ildönümünə həsr olunmuş "Zəfər sədası" adlı bədii qiraət müsabiqəsi keçiriləcək. Milli mədəniyyət məkanında baş verən yaradıcılıq proseslərini fəallaşdırmaq, bədii qiraətə marağı artırmaq və yeni yaradıcılıq axtarışlarına şərait yaratmaq məqsədilə təşkil olunan müsabiqənin müəyyən şərtləri də var.

İştirakçılardan səlis danışıq, nitq qabiliyyəti, intonasiya tələb edən yarışmada yaş məhdudiyyəti yoxdur. Vətənpərvərlik mövzusunda şeirin (seçim sərbəstdir) qiraəti canlı olaraq münsiflər önündə təqdim ediləcək. Qaliblər mükafatlandırılacaq.

## Füzuli teatrında "Tənhalığın evi"

Füzuli Dövlət Dram Teatrı Mədəniyyət Nazirliyi və "Teatro.az" saytının təşkilatçılığı ilə 25-30 noyabr tarixində keçiriləcək "4.4" Qısa Tamaşalar Festivalında iştirak edəcək.

Kollektiv festivala Abdulla Elşadlının eyniadlı pyesi əsasında hazırlanan "Tənhalığın evi" (quruluşçu rejissor – Nicat Mirzəzadə) tamaşası ilə qatılacaq.

Füzulili teatr təmsilçiləri Azərbaycan Teatr Xadimlər İttifaqının Milli klassika festivalına da hazırlaşır. Onlar münsiflər qarşısında Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" komediyasını göstərəcəklər.

Hazırda teatrda Xəqani Əliyevin "Molla Nəsrəddin" (quruluşçu rejissor – Nicat Mirzəzadə) və Rəhman Əlizadənin "Əbləhlərin toyu" (quruluşçu rejissor – Asif Şirinov) əsərlərinin məşqləri gedir.

## Qalibiyyət dastanı rəsm əsərlərində

### "Zəfər – 44" yaradıcılıq turniri başa çatıb



Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun xalqımıza bəxş etdiyi 44 günlük Zəfər dastanı tarixin səhifələrində əbədiyyən yaşayacaq. Bu Qələbə Azərbaycanın güc və qüdrətinin, mübarizə əzminin parlaq nümayişi oldu. Bu güc gələcəyə mirasdır. Gələcəyimiz olan uşaqlarımıza bu qələbə ruhunu aşılamağın ən gözəl yollarından biri də onların sənət təxəyyülünü, bacarıqlarını təşviq etməkdir.

Belə layihələrdən biri – Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Rəssamlar İttifaqı və Xətai Rayon İcra Hakimiyyətinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Zəfər – 44" adlı uşaq yaradıcılıq turniri başa çatıb.

Sentyabrın 1-də elan olunan turnirdə 10-21 yaş arası uşaq, yeniyetmə və gənclər iştirak ediblər. Qeydiyyatdan keçən hər iştirakçı 2 saat ərzində nəzarətçi rəssamların müşayiəti ilə sərbəst mövzuda rəsm əsərini ərsəyə gətirib. 28 sentyabrda başlanan plener məşğələlər 21 oktyabra kimi davam edib. Hər plenerin sonunda yekun sərgi üçün ilkin seçimlər aparılıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Sərgi və qalereyalar sektorunun müdiri Aqşin Mirfeyzullazadə, Azərbaycan Dövlət Rəsm Qalereyası Elmi-bərpa metodiki və ekspozisiya şöbəsinin müdiri Elçin Hüseynov, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dosenti Sübhan Məmmədov, bərpaçı-rəssam Cəlal Ağayev, Xətai Uşaq Rəsm Yaradıcılıq Studiyasının müəllimi Gündüz Həbibov və başqalarından ibarət heyət tərəfindən 500-dən çox iştirakçının ərsəyə gətirdiyi əl işlərindən 44-ü sərgilənmək üçün seçilib.

Turnirin yekun sərgisi Xətai Sənət Mərkəzində keçiriləcək. Sərgidə əsərləri nümayiş olunan müəlliflərə sertifikat və hədiyyələr təqdim olunacaq.

Bu sənət yarışmasına ilham qaynağı olan şanlı Zəfəri bizə yaşadan şəhidlərimizə Allahdan rəhmət diləyirik. Ruhları şad olsun.

**Sevinc Quliyeva**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı**

# "Yenə tapılmadı payız gəlincə..."

### Elmir Mirzəyevin müəllif konserti xəzan fəslinin zülmət gecəsini nura boyadı

Yox, bu dəfə taksidən düşənləri yarıqaranlıq salonda bir ümid pıçıltıları gözləyirdi. Bir də əngin musiqinin, itmiş xəyalların, hüdudsuz arzuların və hər şeyə rəğmən heç vaxt öləziməyən ümidlərin sonatası.

Yağışın küləklə sövdələşibmiş kimi adamları önünə qatıb sağa-sola sovurduğu növbəti payız axşamıdır. Şəhərin cansıxıcı tıxacının, hövsələsini basa bilməyən sürücülərin avtomobillərinin siqnalı ilə uşaq kimi oynamasının və yerdə qərar tutmayan qızılı yarpaqların müşayiətində Beynəlxalq Muğam Mərkəzinə (BMM) tələsənlər də az deyildi. Zəngin klassik musiqi sorağına toplaşanlar sevincli, bir az da həyəcanlı idilər. Öz aralarında nəyinsə qızğın müzakirəsini edir, konsertin proqramını vərəqləyir və tez-tez saatlarına baxırdılar.

Onlardan fərqli olaraq müəllif çox sakit, məmnun və bir az da rahat idi. Hətta, mənə görə, ənənəvi konsert, tamaşa öncəsi ev sahibi olan yaradıcı şəxslərdən daha azad idi. Mərkəzin foyesindəki divanda əyləşib xoş təbəssümlə ətrafı seyr edirdi.

Əslində, qəribsəsəm də, məhz bu məqam lap xoşuma gəldi. Özündən, işindən və tamaşaçısından əminlikdə bir başqa həzz də var idi: qoy, bu dəfə də dinləyici intizarda qalsın...



Oktyabrın 20-də BMM-də əsərləri vətənindən çox dünyada tanınan və sevilən azad ruhlu musiqiçi, fərqli yaradıcılıq üslubu ilə seçilən bəstəkar Elmir Mirzəyevin ilk müəllif konserti keçirildi. "Alleqoriya Sakra" adı verilən konsert proqramı zəngin, dolğun və fərqli idi. Ən əsası da, spesifik tamaşaçıya hesablanmış təsiri bağışlayan proqram hər nəsildən və musiqi zövqündən insanları bir araya gətirə bilmişdi.

Bəstəkarlıqla yanaşı, musiqişünas və publisist kimi də tanınan Elmir Mirzəyev bir çox müasir musiqi layihələrinin təşkilatçısı, "SoNoR" müasir musiqi ansamblının yaradıcısı və bədii rəhbəri (1995-2005) kimi 90-cı illər nəslinə yaxşı məlumdur. Post-sovet dövrünün ilk müasir musiqi kollektivi olan bu ansamblı o, sənət dostları – pianoçu Samir Mirzəyev, klarnetçi Nizami Zeynalov və gitaraçı Rövşən Məmmədovla birgə yaratmışdı.

Dünyanın müxtəlif məşhur musiqi təhsili ocaqlarında mühazirələr oxuyan, beynəlxalq musiqi, incəsənət layihələrində imzası olan, əsərləri məşhur orkestrlərin proqramına daxil edilən bəstəkarın həmvətənləri üçün təşkil edilən ilk müəllif konserti üç saata yaxın davam etdi. Musiqiçi 20 il ərzində yaratdığı əsərlərin əksər hissəsini təqdim edə bildi.

Konsert dirijor Orxan Həşimovun rəhbərliyi ilə "Cadenza" orkestri və müxtəlif solistlər tərəfindən yüksək peşəkarlıqla təqdim olundu. Mübaliğəsiz demək olar ki, musiqi axşamında ifa olunan əsərlər Azərbaycan müasir bəstəkarlıq məktəbinin layiqli nümunələri sırasındadır. Konsert səhnədə musiqi alətlərinin, yəni orkestrin düzülüşündən "danışan işıq" həllinə qədər fərqli bir ovqat, teatrlaşdırılmış "oyun" öz sözünü deyirdi...

Musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Turan Məmmədəliyeva səhnəyə çıxaraq musiqiçi haqqında ətraflı məlumat verdi. Bəstələri sadaladıqca onların hər birinə ayrıca obraz, daha doğrusu, ənənənin ümumiləşmiş fiquru kimi baxan müəllifin ideya və düşüncə qatındakı xırdalıqları, məna yükünü sadaladı.

İntizarlı tamaşaçı ilk öncə səhnəyə qalxan zərb alətləri kvartetini, ardınca da dördlüklə tək "mübarizə aparan" zərif fleytanı alqışladı.

İlk əsər müəllifin 2011-ci ildə ərsəyə gətirdiyi "Evrikidanın qisasının identifikasiyası" idi. İnstrumental teatr xeyirlə şərin, güclü ilə zəifin, ağla qaranın mübarizəsi fonunda təsir gücünün ifadəsinə görə fərqliliyini göstərdi.

Tarım əsəblər, müasir insanın həyat ilə təkbaşına mücadiləsinə qalib-məğlub axtarışları "Rəmzi üçüncü sükut" sayəsində "pozuldu". Müəllifin 90-cı illərdə yaratdığı bu əsərin ardınca "Nəhayət ki, gəldiniz" səsləndi və intizarın sona yetməsi tamaşa salonuna çoxdan axtardıqları nostalgiya havasını gətirdi.

"Fəyyum portretləri I", "4 mahnı", "Ayin II" zərb alətləri, qanun, violonçel, klarnet, gitara, piano alətlərinin müşayiətində öz həqiqətini dilləndirdi. Salondakılar bəstəkarın özünəməxsus, bəzən qəfil ideyadan təsirlənərək qələmə aldığı əsərlərin təkcə musiqi həzzini deyil, ayrılıqda instrumental səhnə həllini də görürdülər.

Ümumiyyətlə, musiqi axşamının proqramı geniş və rəngarəng panoram təqdim etdi. Məhz tembr həlli, yeni instrumental vasitələrin tətbiqi, gərginlik və ya aydınlıq yaradan müxtəlif səslərin orijinal "hörülməsi" yeni bədii ekspressiyaya gətirib çıxardı.

Əslində, müəyyən məqamlarına görə bu musiqi axşamı sanki bir ritual idi: qəribə energetikası, ovsunlamaq gücü vardı. Ziddiyyətlər içində boğulan insanlığın xilasının yenə də musiqidə olduğuna inam ifadə olunurdu. Bu mənada dörd ifaçının iştirakı ilə təqdim olunan "Ölüm fuqası" adlı instrumental konsert bəstəkarın sarsıntı və qəlb çırpıntılarının dinləyiciyə birbaşa hiss etdirilməsinə hesablanmışdı.

Amma hər qaranlıq sonda günəşin zərrəsi ilə mütləq ki, aydınlanır. Əksini düşünmək belə mümkün deyil. Təsəvvür edirsiz, qapqara bir kədər bütün dünyanı əsirinə çevirir və insanlıq ruhunu ona təslim edir. Yox, bir musiqiçi bunu heç kimə rəva görməz. Sağ olsun, heç görmədi də. Proqramın sonundakı "Alleqoriya Sakra" xilas nurunu "səpdi". 2015-ci ildə yazılan iki ifaçı üçün əsər al şəfəqli günəşin gözqamaşdıran təsviri də sayıla bilər...

Qərib duyğulara hakim kəsilən konsertin mükəmməl təqdimatında orkestrin böyük əməyi vardı.

Musiqi sayəsində, ani də olsa, ayrı-ayrı ruh qatlarında görüşən adamlar səssizliyin bağrını gurultulu alqışları ilə yarıb, payızda itən keçmişin xoş nostalgiyasında küçə işıqlarının müşayiətində gözdən itdilər. Hamını yola salandan sonra dərindən nəfəs alan bəstəkar isə xeyli düşüncəli idi. Bir az da qayğılı. Bu isə çox möhtəşəm mənzərə idi. Demək, növbəti görüş üçün "O uzaq günlərin itmiş açarı..." tapılmışdı...

**H.Nizamiqızı**

# Ustad xanəndə Süleyman Abdullayev dünyasını dəyişib



Azərbaycan mədəniyyətinə itki üz verib. Muğam ifaçılığı sənətinin görkəmli nümayəndəsi, ustad xanəndə, Əməkdar artist Süleyman Abdullayev oktyabrın 23-də, 83 yaşında uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib.

Süleyman Cümşüd oğlu Abdullayev 1939-cu il fevralın 14-də Füzuli rayonunun Qoçəhmədli kəndində anadan olub. 1959-cu ildə istedadlı musiqiçilər seçmək üçün Füzuli rayonuna gələn böyük xanəndə Seyid Şuşinski gənc Süleyman Abdullayevin səsini yüksək qiymətləndirib və o, peşəkar təhsil almaq üçün Bakıya dəvət edilib.

Süleyman Abdullayev 1960-1964-cü illərdə Asəf Zeynallı adına Musiqi Texnikumunda Seyid Şuşinskinin sinfində təhsil alıb, muğam dəsgahlarını tam şəkildə öyrənib. 1964-cü ildən Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi fəaliyyətə başlayıb, xalq çalğı alətləri ansamblları ilə çalışıb.

Zəngin tembrli səsə malik xanəndə muğamların məharətli ifası ilə sənətsevərlərin rəğbətini qazanıb. Onun ifasında "Segah", "Dəşti", "Çahargah", "Şur" muğam dəsgahlarının lent yazıları Azərbaycan Televiziyasının "qızıl fond"una daxil edilib. Süleyman Abdullayev həmçinin sənətə gələn bir çox istedadların ustadı olub.

Allah rəhmət eləsin.

# ATMU-da Əhməd Cavadın 130 illiyi ilə bağlı tədbir




Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) "Əhməd Cavad – 130 il" mövzusunda tədbir keçirilib. Tədbirdə əvvəlcə Əhməd Cavada həsr olunan videoçarx nümayiş etdirilib.

ATMU-nun rektoru İlham Mədətov Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, ictimai xadim Əhməd Cavad haqqında söz açıb. Qeyd edib ki, Dövlət Himnimiz səslənəndə onun sözlərinin müəllifi Əhməd Cavadın şəxsiyyəti göz önündə canlanır. Rektor 30-cu illərin repressiya dalğasında xalqımızın istedadlı ziyalılarının, düşünən beyinlərinin məhv edildiyini faktlarla diqqətə çatdırıb.

Görkəmli edibin nəticəsi Cavad Axundzadə valideynlərindən Əhməd Cavad və ömür-gün yoldaşı Şükriyyə xanım haqqında eşitdiyi xatirələri danışıb. O, tədbirin təşkilinə görə ATMU-nun rəhbərliyinə təşəkkürünü bildirib.

ATMU-nun Dillər kafedrasının baş müəllimi Almaz Zöhrabova Əhməd Cavadın yaradıcılığından, ictimai fəaliyyətindən söz açıb. Dillər kafedrasının dosenti Ağaverdi Xəlilov Əhməd Cavadın Azərbaycan Xeyriyyə Cəmiyyətinin ən fəal üzvlərindən biri olduğunu bildirib, onun Hacı Zeynalabdin Tağıyevin maddi yardımı ilə Seyfəlidə məktəb və uşaq bağçalarının açılmasında iştirakından, "Yaşıl qələmlər" və Azərbaycan Proletar Yazıçılar Cəmiyyətində fəaliyyətindən bəhs edib.

Tədbirdə tələbələr Əhməd Cavadın şeirlərini söyləyiblər.

## Hüseyn Cavid – 140

# Tarixi yaddaş, milli-mənəvi dəyərlər və genetik kod



Xalqımız tarixin ən ağır, keşməkeşli dövrlərində belə milli-mənəvi dəyərlərini yad ünsürlərdən qoruyub saxlamağı və gələcək nəsillərə ötürməyi bacarıb. Əsrlərdən əsrlərə miras qalan bu dəyərlərimiz çox zəngin bir mənəvi sərvətdir. Hər bir insan və hər bir millət, ilk növbədə, malik olduğu bu sərvətə sahib çıxmalı, mentalitetini, mədəniyyətini qorumalıdır.

Ölkəmizə rəhbərliyinin hər iki dövründə milli-mənəvi dəyərlərimizə sahib çıxan, diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyev deyib: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".

Azərbaycanın dünya şöhrətli şəxsiyyətləri də xalqımızın dəyərləridir. Çünki onların tarixi xidmətləri, yaradıcılıq mirası ölkəmizi dünyaya tanıtdırır, etnik-mədəni kimliyimizi bəyan edir. Bu şəxsiyyətlər arasında böyük mütəfəkkir şair, dramaturq Hüseyn Cavidin (1882-1941) də adını fəxrlə çəkə bilərik.

Milliliyə, türklüyə böyük önəm verən Hüseyn Cavidin ədəbi-estetik və fəlsəfi görüşlərinin formalaşmasında İstanbul mühiti böyük rol oynayıb. Təsadüfi deyil ki, turançılıq, türkçülük idealı şairin bütün yaradıcılığından qırmızı xətlə keçir. Onun əsərlərindəki hadisələr əsasən Türk-Turan dünyasında cərəyan edir, qəhrəmanlarının çoxu türk ellərinin seçilmiş igid oğul və qızlarıdır. Eyni zamanda hadisələrin cərəyan etdiyi bu məkanlarda danışılan da türk dilidir...

Məlumdur ki, Azərbaycan milli ideoloji təfəkkürünün qaynaqları çox dərinlərə gedib çıxır və onun əsasında türklük düşüncəsi dayanır. Azərbaycan təfəkkürünü türklükdən ayrı düşünmək onu öz mənbəyindən, öz qaynağından qoparmaq deməkdir. Doğrudur, zaman-zaman ictimai-siyasi proseslərin təsiri ilə ideoloji düşüncəmiz müxtəlif təsirlərə məruz qalıb, lakin heç bir qüvvə ideoloji təfəkkürümüzü türklük qaynağından qopara bilməyib. Cavid əfəndi də bütün bunları çox gözəl bilirdi və yaradıcılığında böyük sevgi və məsuliyyətlə əks etdirirdi. Buna görə də şairin daha çox tarixi mövzulara müraciət etməsi təbiidir. Onun yaradıcılığında türklərin tarixi, mədəniyyəti, folkloru, türk insanının yaşam tərzi dolğunluqla əks olunub.

Cavidin müasiri olan tənqidçilər onun tarixə müraciətini yanlış anlayırdılar. Ədibin ən ədalətli tənqidçilərindən olan Hənəfi Zeynallı o illərdə yazırdı: "Cavid bir "Şeyx Sənan" yazar, bir "Uçurum" açar, bir "Afət" doğurar, bir "İblis" rəqs etdirər, bir "Peyğəmbər" yaratmağa qayrət edər, bəlkə də şimdi bir Çingiz, yarın bir İskəndər, ertəsi gün də bir Lenin diriltməyə can atacaqdır".

Görkəmli ədəbiyyatşünas alim, AMEA-nın müxbir üzvü mərhum Yaşar Qarayev Cavidin əsərlərini "bəşər və dünya tarixinə çəkilən illüstrasiyalar", şairin özünü isə "planeti görən və planetdəki bütün qütblərdən görünən sənətkar" olaraq dəyərləndirirdi. "Bəşər və dünya tarixinə çəkilən illüstrasiyalar"ın içərisində sovet ideologiyası, o mürtəce rejimin rəhbərləri, sovet adamı, kolxoz, traktor, "böyük rus xalqı" yox idi. Cavid yaradıcılığında keçmiş bu gün, bu gün keçmiş üzərində qurulmuşdu. Şair türkün tarixinə etinasızlığı və biganəliyi xəyanət sayırdı. Mütəfəkkir ədib "türk cəmiyyətini türkün qəhrəman və igid oğullarına qədirşünaslıq göstərmək" fikrini "Maral" faciəsində topçu alayının zabiti Çingiz bəy obrazı vasitəsilə təəssüflə bəyan edirdi: "Əcnəbilər böyük İskəndər, böyük Napoleon deyə öz qəhrəmanlarına abidələr yapdırır, heykəllər tikdirirlər. Fəqət bizlər!... Bizlər isə Çingiz kimi cahangirlərə, Teymur kimi qəhrəmanlara xunxar, canavar deyə ləkələmək istəyiriz!".

Ədib bu sözləri 1912-ci ildə yazmışdı. Hələ nə Rusiyada 1917-ci il inqilabı baş vermişdi, nə də Azərbaycan bolşeviklər tərəfindən işğal olunmuşdu. Heç zaman ədəbi ideallarına, sənətkar vicdanına xəyanət etməyən şair 1926-cı ildə Əmir Teymur haqqında əsər yazdı. Bəzi mənbələrdə "Çingiz" əsəri yazmasından da bəhs olunur. Cavid əfəndinin şeirinə və sənətkarlığına məftun olan ədəbiyyatşünas Əkrəm Cəfər "Həqiqət şairi" adlı məqaləsində yazır: "Cavidlə son görüşüm 1936-cı ilin yayında Moskvada oldu. Uzun söhbət əsnasında indi hansı mövzu üzərində işlədiyini soruşdum. – Lenin! – dedi".

Tarixə və tarixi mövzulara çox maraqlı olan Cavid əfəndi Lenindən yazmaya bilməzdi. Sözsüz ki, onun yazdığı "Lenin" əsəri əlimizə gəlib çatsaydı, bu əsər Lenin haqqında yazılanların hamısından seçiləcəkdi. Çünki gerçək ədəbiyyat yaratmaqla məşğul olan Cavid əfəndidə "tarixi fakta sədaqət" hissi çox güclü idi. O, Solovki həbs düşərgəsinin yaradıcısına – Leninə mədhiyyə yazmayacaqdı. Əminik ki, Cavid belə bir əsər yazsaydı, Leninin o zamanlar heç birimizə bəlli olmayan yönlərini də xalqa göstərəcəkdi. Təəssüf ki, şairin özü kimi, bir neçə əsəri də – "Lenin", "Çingiz", "Atilla" və s. repressiyaya uğrayıb.

> Zaman-zaman ictimai-siyasi proseslərin təsiri ilə ideoloji düşüncəmiz müxtəlif təsirlərə məruz qalıb, lakin heç bir qüvvə ideoloji təfəkkürümüzü türklük qaynağından qopara bilməyib. Cavid əfəndi də bütün bunları çox gözəl bilirdi və yaradıcılığında böyük sevgi və məsuliyyətlə əks etdirirdi...

Cavidin "Çingiz"i haqqında görkəmli ədəbiyyatşünas, akademik Rafael Hüseynov yazır: "Üç sirr var. Həbibə xanım Məmmədxanlıdan qalıb o sirlər mənə və açmaq məqamı yetdi. Ürəyindən daş olub asılan hər üç sirri Mişkinaz xanım Həbibə xanımla bölüşübmüş və "məbada Turan bilə", – deyibmiş. Birinci sirr odur ki, 1939-cu ildə Bakıda, həbsxanada Mişkinazla son görüşlərindən birində Cavid ona pıçıldayıbmış ki, "tutulduğum gün aparılan "Çingiz"in əslini, ya qaralamalarını haçansa tapsan, son pərdədə ozanın şərqisini oxu və həmin vərəqi cır at. Orada Ərtoğrolla Turanın qismətini yazmışam. Möhkəm ol!".

Mişkinaz xanım Cavidin qaralamaları içərisindən ozanın nəğməsini tapıbmış, son ümidi Ərtoğrolu tezliklə, özü də məhz vərəmdən qeyb edəcəyi barədə ərinin şeirlə xəbərdarlığını dəhşət içərisində oxuyubmuş, o vərəqi yandırıbmış. Həbibə xanım həmin vərəqin bir çimdik külünün büküldüyü kiçicik düyünçəni ölümündən az qabaq bu sirlə birgə mənə verdi: "Ananın ürəyi gəlməmişdi bunu atsın, sən də saxla, bəlkə bu bir əlamətdir ki, bir gün "Çingiz"in tapılmasına səbəb oldu".

Beləliklə, millət öz faciəsini yaşadığı qorxunc, ziddiyyətli bir zamanda, məlum 30-cu illərdə, Cavid əfəndi heç nədən qorxmadan, çəkinmədən, necə deyərlər, ölümün gözünə baxa-baxa "Peyğəmbər"də Peyğəmbər, "Seyx Sənan"da Şeyx Sənan, "Topal Teymur"da Əmir Teymur, "Çingiz"də Çingiz, "Səyavuş"da Səyavuş, "Xəyyam"da Xəyyam yaradırdı. Hətta yazılanlara inansaq, zənni Hənəfi Zeynallını aldatmamışdı, Cavid əfəndi Çingizə, Leninə də əsərlər yazmışdı.

Ədibin tarixə, tarixi mövzulara marağını "Topal Teymur", "Peyğəmbər", "İblis" və "Səyavuş" pyeslərini təhlil edən ilk Cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadə "müəllifin bu günün həqiqətini deyə bilmək üçün tarixin qoynuna sığınması"nı vurğulamış, sovet cəmiyyətində "sənətkarlarımızın hansı formalarda öz fikirlərini söyləmək imkanı tapdıqlarının" sübutu üçün Cavid əfəndinin əsərlərini nümunə göstərmişdi.

Həmişə yazdıqlarından düşüncələrinin təbliğatı kimi istifadə edən Cavid əfəndidə milli mövzular daha çox ağırlıq təşkil edib. Çünki böyük sənətkar Oğuz-Türk xalqlarının, toplumlarının qardaşlıq və həmrəyliyini bir ideya kimi irəli sürərkən, hər şeydən əvvəl, onların tarixi köklərini, qədim mənşə birliyini, keçmiş qəhrəmanlıq səhifələrindəki müştərəkliyi ön plana çəkib. Böyük iftixarla və qürurla keçmişə arxalanan şairin "Qoca bir türkün vəsiyyəti" şeiri bu mənada diqqətəlayiq nümunələrdəndir:

*Bir millətin tarixidir kökü, yurdu, yuvası,*
*Tarixiniz baş ucundan hərgiz əskik olmasın.*
*"Altay" dağı, "Makan" çölü, həm də "Yasın" ovası*
*Birər aydın səhifədir, hər türk gərək anlasın.*

*Südü təmiz, əsil oğul bilməzmi ki, əcdadı*
*Nasıl doğub yaşamışlar, nə ərliklər etmişlər.*
*Bilməli ki, tez məhv edər zaman nankor evladı,*
*Öz nəslini unutanlar çoqdan sönüb getmişlər...*

Ömrü boyu milliliyə, etnik-mədəni yaddaşa söykənən müəllif şeiri çox vacib bir çağırışla bitirir:

*...Əsr – iyirminci əsrdir!*
*Vəzifəsi pək ağır.*
*Marş irəli!*
*Qomşular yol aldı, geri qalmayın!*

"Qoca bir türkün vəsiyyəti"ndəki bu müraciəti ilə Cavid əfəndi türk gəncliyini tərəqqiyə səfərbər edir. Eyni ideyanı "Maral" əsərində davam etdirən, bir türkün əzəmətini öz kökünü, öz soyunu unutmamaqda görən ədib Bayrama məsləhət verən Bəypoladın dili ilə fikirlərini bu şəkildə diqqətə çatdırır: "Sən bir türk oğlusan, mərd oğul kökünü unutmaz. Ər oğlu ər ol, qəlbini dar tutma!".

Bir millətin tarixini kökü, yurd-yuvası bilən Cavid əfəndi haqlı olaraq "Uçurum" pyesində öz kökünü unudanların mütləq bir faciə ilə qarşılaşacağını bəyan edirdi. Bu mənada, Cavid əfəndinin istər şeirlərində, istərsə də səhnə əsərlərində yaratdığı silsilə obrazlar və ideyalar sistemi milli ideologiyanın bütün tərəflərini özündə əks etdirir. Millilik anlayışını dərk etmək üçün məhz Cavid əfəndinin yaradıcılığını dərindən öyrənmək yetərlidir. Çünki Cavid təkcə şair, dramaturq, mütəfəkkir deyil, o həm də böyük nəzəriyyəçidir, ideoloqdur. Yazdıqları böyük və müqəddəs amala xidmət edir.

Hər zaman nədən və necə yazmağı yaxşı bilən Cavid əfəndi bütün yaradıcılığı boyu buna əməl edib. Yaratdığı zəngin xəzinə ilə millətin gələcəyini aydınlatdığı, xalqını özünüdərkə səslədiyi üçün pantürkist-millətçi kimi uzaq Sibirə sürgün edilən şairin cənazəsini vətənə gətirən milli-mənəvi dəyərlərimizin himayədarı ümummilli lider Heydər Əliyev oldu. Mütəfəkkir şairin nəşini Sibirdən gətirmək, onu Sibirə sürgün etmək qədər asan deyildi. Ümummilli lider öz çıxışlarından birində haqlı olaraq bu işin nə qədər çətin və məsuliyyətli olduğunu demişdi: "...1982-ci ildə Hüseyn Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi".

Öz gücünü, cəsarətini milli dəyərlərimizə sədaqətdən alan ulu öndər 59 yaşında Sibirə sürgün edilən Cavidin nəşini 41 il sonra, 100 yaşında böyük siyasi ustalıqla vətənə gətirdi. Bu, tək Cavidin vətənə qayıdışı deyildi. Akademik Rafael Hüseynovun təbirincə desək, bütövlükdə, "milli hissə və duyğuya malik olan şəxsiyyətlərin hamısının cənazəsinin, ruhunun, öz doğma vətənlərinə – Azərbaycana qaytarmaqdı". Bu, keçmiş SSRİ məkanında analoqu olmayan hadisə, ümumilikdə, milli dəyərlərə hörmət və sədaqət idi ki, "bunun da möhkəm və sarsılmaz qaynaqları var. Əgər bu qaynaqlardan biri Hüseyn Cavidlə Heydər Əliyevi birləşdirən coğrafi məkandırsa, daha önəmlisi, Heydər Əliyev və Hüseyn Cavidi birləşdirən onların baxışlar sistemindəki milliliyə, türkçülüyə, milli yaddaşa, millətə və xalqa olan sədaqət hissləridir".

Dövlət başçısının sərəncamı ilə bu il 140 illiyini qeyd etdiyimiz "Millət müəllimi"nin əsərləri milli yaddaşımızı, milli özünəməxsusluqlarımızı, dilimizi, tariximizi daha dərindən öyrənməyə, idrak etməyə çağırışdır. Bütün Türk dünyasını daha işıqlı və daha uzaq məsafələrə aparmağa güc verən bir çağırış...

**Lütviyyə Əsgərzadə**
**Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya üzrə elmlər doktoru**

# 13 yaşında Üzeyir bəyin "Cəngi"sini müəllif qarşısında ifa etmişdi

## Musiqişünas Solmaz Qasımovanın hazırladığı tədris vəsaitləri bu gün də istifadə olunur

Azərbaycan musiqişünaslıq elmində öz sözü, dəst-xətti ilə seçilən alimlərimizdən biri də Əməkdar müəllim, professor Solmaz Qasımova olub. Onun gərgin elmi axtarışlarının bəhrəsi olan əsərləri musiqi sənətinin tədqiqinə dəyərli töhfələr hesab edilir.



Solmaz Qasımova 24 oktyabr 1929-cu ildə Bakı şəhərində riyaziyyatçı alim Cəlal Qasımovun ailəsində dünyaya göz açıb. Solmaz orta məktəblə yanaşı, 2 saylı Musiqi məktəbində də təhsil alır. 13 yaşında Teatr İnstitutunda Üzeyir Hacıbəylinin "Cəngi" əsərini fortepianoda ifa edir. Dahi bəstəkar onun ifasından razı qalır. Bu görüş yeniyetmə musiqiçinin gələcək sənət yoluna işıq tutur. Musiqi Texnikumunun Fortepiano şöbəsində təhsilini davam etdirir. O, təhsil ocağının rektoru, dahi bəstəkar Qara Qarayevin məsləhəti ilə nəzəriyyə-bəstəkarlıq şöbəsinə dəyişilir.

Texnikumu uğurla başa vuran S.Qasımova Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq ixtisasına qəbul olunur. Yorulmadan çalışır, tanınmış sənətkarlardan dərs alır. 1954-cü ildə Bəstəkarlıq fakültəsi tələbələrinin buraxılış konsertində Qara Qarayev ona yaxınlaşır. Yüksək səviyyədə yazdığı buraxılış işinə görə təbrik edir. Bu, gənc bəstəkarın musiqi elminin gələcək inkişafı yollarında ona verdiyi ən böyük mükafat olur.

Təhsil uğurlarına görə konservatoriyada saxlanılan S.Qasımova musiqi tarixi və nəzəriyyəsi kafedrasında əmək fəaliyyətinə başlayır. Pedaqoji fəaliyyəti dövründə dosent, professor vəzifələrinə kimi yüksəlir. Müxtəlif illərdə Asəf Zeynallı adına Musiqi Məktəbi və Teatr İnstitutunda da dərs deyir.

Professor Elmira Abdullayeva araşdırmasında qeyd edir ki, S.Qasımova konservatoriyada tədris olunan nəzəri fənlər: xarici ölkələrin musiqi tarixi, SSRİ xalqlarının musiqi tarixi, musiqi tənqidinin tarixi və nəzəriyyəsi, sovet musiqisi tarixi və s. üzrə mühazirə, seminar və məşğələlər aparıb.

Həmin dövrdə konservatoriyada Azərbaycan dilində dərs deyən müəllimlər barmaqla sayılacaq qədər az idi. Solmaz xanım xarici ölkələrin musiqi tarixi fənnini Azərbaycan dilində tədris edən ilk müəllim və bu fənnin ilk dərs vəsaitinin müəllifi olub. 1960-cı illərdə konservatoriyada ilk dəfə tədris olunan Azərbaycan musiqi tarixi fənninin də ilk mühazirəçisi, proqramlarının müəllifi məhz S.Qasımova idi. Onun hazırladığı tədris vəsaitləri bu gün də tələbə və müəllimlərin müraciət etdikləri dəyərli mənbələrdir.

Fədakar müəllim pedaqoji fəaliyyətlə yanaşı, bu sahədə elmi araşdırmalar da aparmaq istəyir. 1965-ci ildə Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun aspiranturasına daxil olur. Moskva Konservatoriyasının professoru İ.Y.Rıjkinin rəhbərliyi ilə 1969-cu ildə "Azərbaycan bəstəkarlarının opera yaradıcılığında müasir mövzu" adlı namizədlik dissertasiyasını (fəlsəfə doktoru) uğurla müdafiə edir. Azərbaycan opera sənəti ilə bağlı problemlər, elmi axtarışlar musiqişünas alimin diqqət mərkəzində olur. Onun "Azərbaycan bəstəkarlarının operalarının musiqi dilində xəlqilik cəhətləri", "Azərbaycan operaları", "Fikrət Əmirovun "Sevil" operasının musiqi dilinin xalq mənbələri", "Azərbaycan bəstəkarlarının opera yaradıcılığı" adlı əsərləri opera janrının Azərbaycanda təşəkkülü və inkişafının tədqiqinə həsr olunub. Bu elmi əsərlərdə hər bir əsərin dramaturgiyası, bədii-intonasiya məzmunu, forma quruluşu, orkestr və harmonik dili ətraflı təhlil edilib. Bununla da dünya opera musiqisinin Azərbaycan bəstəkarlarının yaradıcılığında milli mənbə, xalq musiqisinin səciyyəvi cizgilərinin üzvi bağlılığı ilə əlaqədar konkret faktlar əsasında təhlillər aparılıb, mühüm elmi nəticələr əldə edilib. Opera musiqisinin lad-harmonik xüsusiyyətləri də alimin yaradıcılığında əksini tapıb. Bu kitablarda Ü.Hacıbəylinin "Koroğlu", M.Maqomayevin "Nərgiz", Q.Qarayev və C.Hacıyevin "Vətən", F.Əmirovun "Sevil", C.Cahangirovun "Azad" operaları ətraflı təhlilə cəlb olunub. Eyni zamanda Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasının ənənələrini davam etdirən, muğam operasına yeni ahəng və yollar tapan bəstəkarların – C.Cahangirovun "Xanəndənin taleyi", Ş.Axundovanın "Gəlin qayası" operaları, eləcə də son dövrdə yaranmış müasir operaların təhlili verilib.

S.Qasımova eyni zamanda Azərbaycan bəstəkar və ifaçılarının həyat və yaradıcılığına həsr olunan bir sıra monoqrafiyaların da müəllifidir. "Cahangir Cahangirov", "Süleyman Ələsgərov", "Azər Rzayev", "Tofiq Quliyev", "Ramiz Quliyev", "Fikrət Əmirov" monoqrafiyalarında hər bir sənətkarın yaradıcılıq portreti, əsərlərinin bədii və üslub xüsusiyyətləri, milli incəsənətdə, musiqi mədəniyyətimizdə rolu və tarixi xidmətləri geniş işıqlandırılıb.

Professor S.Qasımova yeni musiqişünas alimlər nəslinin yetişdirilməsinə də mühüm töhfələr verib, 80-dən artıq diplom işinə və 12 namizədlik dissertasiyasına rəhbərlik edib. Alim dəfələrlə Bakı, Moskva, Tbilisi, Daşkənd şəhərlərində dissertasiya işlərinin müdafiəsində opponent olub.

Dolğun elmi və pedaqoji fəaliyyəti ilə bir neçə musiqiçi nəsli yetişdirən musiqişünas, Əməkdar müəllim, professor Solmaz Qasımova 2016-cı il dekabrın 20-də Bakıda vəfat edib.

**Savalan Fərəcov**

# Mədəniyyət evində Xalq şairi Ramiz Rövşənlə görüş

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin (BŞMBİ) "Qonağımız var" layihəsi davam edir.



Layihə çərçivəsində oktyabrın 23-də Əmircan qəsəbə Mədəniyyət evində müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi, esseist, kinossenarist, tərcüməçi Ramiz Rövşənlə görüş keçirilib.

Tədbirdə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, BŞMBİ-nin rəisi İbrahim Əliyev, Azərbaycan Mətbuat Şurasının (AMŞ) sədri Rəşad Məcid, Mədəniyyət evinin əməkdaşları, rayon ictimaiyyəti və poeziyasevərlər iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Aparıcı Günay Firudinqızı qonaqları salamlayaraq Ramiz Rövşənin həyat və yaradıcılığı haqqında məlumat verib.

Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, baş idarənin rəisi İbrahim Əliyev, AMŞ-nin sədri Rəşad Məcid və başqaları şairin bənzərsiz yaradıcılığının bütün nəsil oxucular tərəfindən sevildiyini vurğulayıblar. Qeyd olunub ki, Ramiz Rövşən şeiri oxuculara sevdirən və poeziyaya yeniliklər gətirən imzalardandır.

Sonra Xalq şairi ədəbiyyat və sənətlə bağlı qənaətlərini bölüşüb, yeni şeirlərini oxuyub, iştirakçıların suallarını cavablandırıb.

Ramiz Rövşən poeziyasının vurğunu olan gənc və yaşlı nəslin nümayəndələri şairin şeirlərini böyük həvəslə səsləndiriblər.

Sonda şair tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirib, oxucuların təqdim etdiyi kitablarını imzalayıb.

# "Bas bağrına bu Şaiqi, ey Vətən!"

Abdulla Şaiqin Mənzil-Muzeyi və Bakı Modern Təhsil Kompleksi Kitabxanasının birgə təşkilatçılığı ilə oktyabrın 21-də "Beynəlxalq Məktəb Kitabxanaları Günü"nə həsr edilmiş "Bas bağrına bu Şaiqi, ey Vətən!" adlı tədbir keçirilib.



Tədbirdə muzeyin əməkdaşları, Bakı Modern Təhsil Kompleksinin təlim-tərbiyə işləri üzrə direktor müavini Kəmalə Bağırova, kompleksin kitabxanasının rəhbəri Ziba Şahbazova, sinif rəhbəri Lalə Məmmədova, şagirdlər, Prezident Kitabxanasının baş mütəxəssisi Rəxşanə Quliyeva, şəhid Fərrux Bayramovun həyat yoldaşı Nuridə Bayramova iştirak ediblər.

Kitabxanaçı Nərmin Səfərovanın aparıcılığı ilə keçən tədbirdə muzeyin direktoru Ülkər Talıbzadə və kompleksin direktor müavini Kəmalə Bağırova çıxış edərək kitabların və kitabxanaların insanların həyatında rolundan söz açıblar.

Sonra tanınmış ziyalıların görkəmli ədib, maarifçi Abdulla Şaiq haqqında fikirlərinin səsləndiyi videoçarx nümayiş olunub. Videoçarxda mətnlər təhsil kompleksinin müəllimləri tərəfindən səsləndirilib. Məktəblilər Abdulla Şaiqin şeirlərini söyləyib, vətənpərvərlik ruhlu mahnılar ifa ediblər.

Nuridə Bayramova həyat yoldaşı – şəhid Fərrux Bayramovla bağlı xatirələrini bölüşüb.

Sonda Abdulla Şaiqin Mənzil-Muzeyi tərəfindən tərtib və nəşr edilmiş kitablar Bakı Modern Təhsil Kompleksi kitabxanasının və Prezident Kitabxanasının nümayəndələrinə hədiyyə edilib. İştirakçılar muzeyin ekspozisiyası ilə tanış olublar.

# Sənəti örnək, xatirəsi əziz

## Bədurə Əfqanlı – 110

Kino kollektiv əməyin məhsuludur. Ekran əsərlərinin ideya-bədii fikrinin tamamlanmasında, kompozisiya tamlığının təmin olunmasında rəssam (quruluşçu, qrim, geyim) əməyinin də mühüm yeri var. Dövrə aid ekran obrazlarının, ələlxüsus geyimlərinin düzgün hazırlanması aktyor ifasının dolğunluğuna, hadisələrin inandırıcılığına rəvac verir, filmlərin baxımlılığını artırır.



Yüksək sənətkarlıq keyfiyyəti həyata fərqli baxışdan, ətraf mühitə olan böyük diqqətdən, insanlara sevgidən yaranır. Xalq rəssamı Bədurə Əfqanlının gözəllikləri vəsf edən zəngin, çoxşaxəli yaradıcılığı da insanlıq missiyasına xidmət etmək istəyindən irəli gəlib. Milli teatr və kino sənətindəki çoxillik fəaliyyəti müxtəlif mövzulu tamaşaların və filmlərin uğurlu alınmasına zəmin yaradıb.

Bədurə Məlik qızı Əfqanlı (Ağamalova) 1912-ci il oktyabrın 25-də Bakıda dünyaya göz açıb. Atası dövrünün geniş dünyagörüşlü ziyalılarından olub, Bakı Dumasında baş mühasib işləyib. Rəsm çəkməyi, mütaliəni sevən Məlik Ağamalov dövrünün boz mühitindən qurtulmağın yeganə yolunun yalnız elmdə, təhsildə, mədəni mühitin təşəkkülündə olacağını yaxşı bildiyindən övladlarına da ədəbiyyatı, incəsənəti sevdirib.

Ailə mədəniyyəti övladlara təsirsiz ötüşməyib, işıqlı təfəkkürlü valideynlərin təlim-tərbiyəsi nəticəsiz qalmayıb. Ailənin böyük qızı Səyyarə heykəltəraşlıqla məşğul olub. Bədurə isə əvvəlcə Bakı Pedaqoji Texnikumuna daxil olsa da (1929), sonradan rəssam olmaq arzusu ilə Bakı Rəssamlıq Məktəbinə qəbul olub (1931), qrafika şöbəsində təhsil alıb.

Görkəmli aktyor Rza Əfqanlı ilə ailə həyatı qurması Bədurə xanımın teatrla əlaqəsini daha da genişləndirib. İki il ərzində Türkmənistanın paytaxtı Aşqabaddakı teatra baş rejissor təyin olunan Rza Əfqanlı orada aktyor kimi də çalışıb, Bədurə xanım isə teatrın quruluşçu və geyim rəssamı kimi fəaliyyət göstərib. Sonra 1940-1960-cı illərdə Akademik Milli Dram Teatrında quruluşçu rəssam işləyib. Azərbaycan Dövlət Rus Dram Teatrının tamaşaları, həmçinin opera, rəqs ansamblı və bədii özfəaliyyət kollektivləri üçün də geyim eskizləri çəkib.

Göründüyü kimi, məhsuldar yaradıcılığı Azərbaycan teatrının inkişaf dövrünə təsadüf edən Bədurə xanım müxtəlif teatrlarda peşəkarlıq nümayiş etdirib, sənət sevgisini bənzərsiz yaradıcılıq nümunələri ilə təsdiqləyib. Dövrün mədəni mühitində mühüm rol oynayan rəssamların (Tahir Salahov, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov və b.) tez-tez onlara qonaq gəlməsi, yaradıcılıq müzakirələri Bədurə xanımın sənət eşqini daha da artırıb, sənət istiqamətini dəqiqləşdirib.

Bədurə xanımın kino fəaliyyəti görkəmli kinorejissor Hüseyn Seyidzadənin "Koroğlu" film-dastanı ilə başlayır. Məşhur xalq dastanının ekran variantında dövrün prototiplərini canlandıran aktyorların libasları həyat mövqelərini, sosial durumlarını, kimliyini xarakterizə edir.

Rejissor ideyasının, həmçinin dastanın bədii təcəssümünün tamaşaçıya dolğun, inandırıcı çatdırılmasında bilavasitə rol oynayan geyimlər ekran hadisələrinin gerçəkliyini, personajların reallığını diktə edir. Filmin qəhrəmanlarından Koroğlunun, Həsən xanın, əyanların, sarayda yaşayan qadınların, rəqqasələrin, dayənin, kosa Səfərin, dəmirçilərin, döyüşçülərin geyimləri həyat mövqeləri ilə yanaşı mənəvi durumlarını, düşüncə tərzlərini xarakterizə edir, ünsiyyət və münasibət formalarına aydınlıq gətirir. Bədurə xanımın peşə bilgisi ilə sənət sevgisinin vəhdəti rejissor ideyasını tamamlayır, nəticə etibarilə də filmdə bitkin, məzmunlu kadrlar sıralanır.

Rəssamın çalışdığı digər ekran əsərlərində ("Leyli və Məcnun", "Dəli Kür", "Böyük dayaq", "Sevil", "Dədə Qorqud", "O qızı tapın", "Qatır Məmməd") də geyimlər fərqli dövrlərin ab-havasını çatdırır, hadisələr və obrazlar haqqında dolğun məlumat əldə etməyimizə imkan yaradır. Ekran personajlarının geyimləri məzmunu tamamladığına, obrazların fərdi xüsusiyyətlərini təsdiqlədiyinə görə sözügedən filmlər maraq doğurur, ekran taleyini uğurla yaşayır.

Məlumdur ki, filmlərin hazırlıq dövründə aktyorlar sınaq çəkilişlərinə dəvət edilir. Aktyorlar seçiləndən sonra dekor və geyim rəssamının eskizləri bədii şuraya təqdim olunur, eskizlər təsdiqləndikdən sonra isə geyimlərin tikilişinə başlanılırdı. Bədurə xanım işinə olduqca məsuliyyətlə yanaşırdı. Eskizləri bir neçə variantda işləyirdi ki, bədii şurada təsdiqlənsin.

Yaxşı yadımdadır, o, bəzən səhərdən axşama qədər çəkilişlərdə olurdu, geyimlərə şəxsən nəzarət edirdi. Bəzən də atelyeyə paltarların tikilişinə nəzarət etmək üçün gedirdi. Hərdən yorğunluğu hiss olunurdu, amma üzündən təbəssüm əskik olmurdu. Parçaları sifariş etmə vaxtı çatanda deyirdi ki, mənsiz tikiş fabrikinə getməyin. Bizimlə ora gedir, libaslara lazım olan parçaları seçirdi. Bəzən də fabrik işçisindən onu parçalar saxlanılan anbara aparmasını xahiş edirdi. Ora üst-üstə yığılmış, işlənməyən parçalarla dolu olurdu. Bədurə xanım bir çox hallarda həmin parçalardan seçirdi, tikiliş üçün sifariş edirdi. Onda seçim və rəngarənglik çox olurdu, həm də büdcəyə sərf edirdi.





Daim yaradıcılıq axtarışında olan rəssam 1960-cı ildən "Azərbaycanfilm" Kinostudiyasında geyim üzrə rəssam kimi fəaliyyət göstərib. Yaddaşlarda iz salan məşhur ekran personajlarının (Qazan xan, Alp Aruz, Cahandar ağa, Qatır Məmməd və b.) libaslarının hazırlanmasında əhəmiyyətli rol oynayıb, maraqlı eskizləri əsasında hər dövrə aid əlbəsələr tikilib.

Kinoda işləyən geyim rəssamı savadlı olmaqla yanaşı, geniş dünyagörüşünə malik olmalıdır. Bədurə xanımın kino fəaliyyətinə nəzər salanda müxtəlif dövrləri əhatə edən hadisələrin personajların fərdi xüsusiyyətlərini bəyan edən geyimlərlə harmoniya təşkil etdiyini görürük. Rəssamın eskizləri əsasında hazırlanan geyimlər öz dövrünün mühitini xarakterizə edir, insanları haqqında təsəvvürümüzü dəqiqləşdirir.

Bədurə xanımın kino fəaliyyətinə Əməkdar mədəniyyət işçisi Akif Rüstəmovun xatirələrində də nəzər salaq: "Bədurə xanımı işinə böyük sevgi ilə yanaşan geyim rəssamı kimi xatırlayıram. Rejissorlar onu həvəslə filmlərinə dəvət edirdilər. Çünki ona inanırdılar. Tarixi gözəl bilirdi və filmlərə aid dövrü mütləq araşdırırdı. Buna görə də eskizləri həmişə dəqiq işləyirdi. Onunla "Sevil" (rejissor assistenti) və "Dədə Qorqud" (ikinci rejissor) filmlərində işləmişəm. Bədurə Əfqanlını çəkiliş meydançasına gətirmək və yaxud atelyeyə aparmaq lazım gələndə evlərinə gedirdik. Bizi yedizdirməmiş heç yerə buraxmırdı. Çox alicənab, mehriban xanım idi...".

Bu yerdə filosof Səlahəddin Xəlilovun bir fikri yerinə düşür: "Gözəlliyi görə bilənlərin öz yaratdıqları da gözəl olur". Yüksək mənəvi keyfiyyətlər insanın fəaliyyətini gözəlləşdirməklə yanaşı, onun haqqında xatirələri də zənginləşdirir.

Bədurə Əfqanlı 2002-ci ildə dünyasını dəyişib. Onun kino fəaliyyəti elə də geniş olmasa da, sənət sevgisinin bariz nümunəsi olan yaradıcılığı haqqında uzun-uzadı danışmaq mümkündür. Məhz bu mənada biliyini, bacarığını yaradıcılığına yansıdan, ekran əsərlərinin tamaşaçı qəlbində iz salmasında mühüm rolu olan Bədurə Əfqanlının sənəti örnək, xatirəsi əzizdir...

**Şəhla Əmirli**
**kinoşünas**

## Xatirə təqvimi — 26-28 oktyabr

### Azərbaycan

**26 oktyabr 1925** – Tanınmış rəssam Əşrəf Murad oğlu Murad (1925 – 11.3.1979) Bakıda anadan olub. Avanqard və nonkomformist cərəyanların nümayəndəsi kimi tanınıb, daha çox portret və natürmort janrlarında əsərlər çəkib.

**26 oktyabr 1982** – Azərbaycan KP MK-nın Birinci katibi – respublikanın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə böyük ədib Hüseyn Cavidin (1882-1941) nəşi Rusiyanın İrkutsk vilayətindən gətirilərək Naxçıvanda dəfn edilib.

**26 oktyabr 1983** – Xalq artisti, violonçel ifaçısı Sabir Hüseynəli oğlu Əliyev (9.5.1928 – 1983) vəfat edib. Milli violonçel ifaçılığı sənətinin əsasını qoyub, Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**26 oktyabr 2000** – Əməkdar mədəniyyət işçisi, aşıq Kamandar Həmid oğlu Əfəndiyev (21.10.1932 – 2000) vəfat edib.

**26 oktyabr 2013** – Əməkdar artist Tofiq Əşrəf oğlu Qarayev (2.7.1953 – 2013) vəfat edib. Ağdam Dövlət Dram Teatrının aktyoru olub.

**26 oktyabr 2014** – Yazıçı, Əməkdar mədəniyyət işçisi Cəmil Adil oğlu Əlibəyov (5.12.1927 – 2014) vəfat edib. "Azərbaycanfilm"in direktoru olub. Rus dilindən ədəbi tərcümələr edib.

**26 oktyabr 2017** – Xalq artisti Rafiq Eyyub oğlu Hüseynov (4.8.1946 – 2017) vəfat edib. 30 ilə yaxın Azərbaycan Televiziyasının aparıcı diktorlarından olub.

**27 oktyabr 1900** – Azərbaycanın və SSRİ-nin Xalq artisti, rejissor, aktyor Mixail İvanoviç Jarov (1900-1981) Moskvada doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrında (1933-1937) çalışıb.

**27 oktyabr 1931** – Xalq artisti, opera müğənnisi (bariton) Mürsəl Tağı oğlu Bədirov (1931 – 26.2.2003) Dərbənd şəhərində doğulub. 1956-cı ildən Akademik Opera və Balet Teatrının solisti olub.

**27 oktyabr 1931** – Əməkdar elm xadimi, filosof alim, professor Cəmil Teymur oğlu Əhmədli (1931-2010) Gədəbəy rayonunun Söyüdlü kəndində anadan olub.

**27 oktyabr 1932** – Bəstəkar, Azərbaycan musiqi tarixində ilk romansların müəllifi Asəf Zeynalabdin oğlu Zeynallı (5.4.1909 – 1932) vəfat edib. Tamaşalara musiqi bəstələyib, Azərbaycanda uşaq musiqisi repertuarının əsasını qoyub, xalq mahnılarını nota alıb.

**27 oktyabr 1936** – Xalq artisti, tanınmış diktor Sabir Məmməd oğlu Ələsgərov (1936 – 20.11.2020) Tiflisdə doğulub. Azərbaycan Radiosu və Televiziyasının baş diktoru olub.

**27 oktyabr 1937** – İctimai xadim, diplomat, Azərbaycan mühacirət tarixinin tədqiqatçısı Ramiz Abutalıb oğlu Abutalıbov (1937 – 1.1.2022) anadan olub. 1970-80-ci illərdə SSRİ-nin UNESCO-dakı nümayəndəliyində çalışıb, 1992-2004-cü illərdə Azərbaycanın təşkilatda daimi nümayəndəsi olub.

**28 oktyabr 1911** – Xalq yazıçısı, dramaturq, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı Mirzə Əjdər oğlu İbrahimov (1911 – 17.12.1993) Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində anadan olub. Əsərləri: "Gələcək gün", "Böyük dayaq" (romanlar), "Həyat", "Kəndçi qızı" (pyeslər) və s. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri (1954-1958) olub, müxtəlif illərdə Yazıçılar Birliyinə rəhbərlik edib.

**28 oktyabr 1927** – Tanınmış tarzən Şirin Məşədi Hüseyn oğlu Axundov (1878 –1927) vəfat edib. Bir çox ustad xanəndələri müşayiət edib.

### Dünya

**26 oktyabr 1819** – Yəhudi əsilli Danimarka yazıçısı, dramaturq Myer Qoldşmidt (Meir Aron Goldschmidt; 1819–1887) anadan olub.

**26 oktyabr 1842** – Məşhur rus batalist rəssamı Vasili Vasilyeviç Vereşşagin (1842–1904) anadan olub. Əsərləri: "Müharibənin təntənəsi", "Teymurləngin qapıları" və s.

**27 oktyabr 1449** – Böyük türk (özbək) mütəfəkkiri, astronom və riyaziyyatçı, dövlət xadimi Məhəmməd Tarağay Uluqbəy (22.3.1394 – 1449) vəfat edib.

**27 oktyabr 1782** – İtalyan bəstəkarı, məşhur skripkaçı Nikkolo Paqanini (Niccolo Paganini; 1782 – 27.5.1840) anadan olub.

**27 oktyabr 1883** - Litva ədəbiyyatında romantizmin görkəmli nümayəndəsi, şair və dramaturq Mikolas Vaytkus (Mykolas Vaitkus; 1883-1973) anadan olub.

**28 oktyabr** Beynəlxalq Animasiya Günüdür (International Animation Day). 1892-ci ilin 28 oktyabrında fransalı ixtiraçı rəssam Emil Reno ekranda ilk animasiya lentini nümayiş etdirib.

**28 oktyabr 1936** – Məşhur ukraynalı teatr rejissoru, Ukraynanın və Rusiyanın Xalq artisti Roman Qriqoryeviç Vityuk (1936 – 17.11.2020) anadan olub.

**28 oktyabr 1957** – Türkiyə müğənnisi, bəstəkar Əhməd Qaya (1957 – 16.11.2000) Malatyada anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# Yazıçılar Birliyinin XIII qurultayına 330 nümayəndə seçilib

Xəbər verildiyi kimi, Azərbaycan Yazıçılar Birliyinin (AYB) XIII Qurultayı oktyabrın 26-da keçiriləcək.

Azərbaycan Yazıçılar Birliyi

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında gerçəkləşəcək qurultayda AYB-nin dəvəti ilə Türkiyə, Rusiya, Litva, İsrail, Pakistan, Gürcüstan, Almaniya, İraq, Belarus və İrandan 20-dən çox qonağın iştirak edəcəyi də gözlənilir.

Qurultay nümayəndələrinin siyahısı oktyabrın 22-də qurumun saytında dərc edilib.

Məlumatda diqqətə çatdırılır ki, AYB-nin XII Qurultayında qəbul olunmuş Nizamnaməsinə görə, növbəti qurultaya nümayəndələr aşağıda göstərilən qayda ilə seçilir: AYB-nin rəhbərliyi (sədr, birinci katib, sədrin müavini, katiblər), Ağsaqqallar Şurasının üzvləri (Xalq şairləri, Xalq yazıçıları, AMEA-nın həqiqi və müxbir üzvləri), bundan əvvəlki qurultayda seçilmiş AYB İdarə Heyətinin üzvləri, Gənclər Şurasının üzvləri, seksiyaların və regional bölmələrin rəhbərləri, qurultaya AYB-nin seksiyalarında və yerli bölmələrində (o cümlədən Naxçıvan Yazıçılar Birliyində) seçilən (hər on nəfərdən biri olaraq) digər nümayəndələr.

Bu qayda üzrə XIII qurultaya AYB rəhbərliyi – 6 nəfər (sədr Anar, birinci katib Çingiz Abdullayev, sədrin müavini Rəşad Məcid, katiblər Elçin Hüseynbəyli, Səlim Babullaoğlu, İlqar Fəhmi), Ağsaqqallar Şurasının üzvləri – 19 nəfər, İdarə Heyətinin üzvləri – 24 nəfər, Gənclər Şurasının üzvləri – 21 nəfər, seksiya rəhbərləri – 6, bölmə rəhbərləri – 19 və bölmələrdən və seksiyalardan seçilənlər də əlavə olunmaqla ümumilikdə 330 nəfər nümayəndə müəyyənləşib.

Xatırladaq ki, AYB-nin XII qurultayı 2014-cü il iyunun 17-də keçirilib. Həmin qurultaya 439 nəfər nümayəndənin seçildiyi, 364 nəfərin qeydiyyatdan keçərək tədbirdə iştirak etdiyi bildirilmişdi. Həmçinin qurultaya 20-dən çox ölkədən 60-dək qonaq qatılmışdı.

№79 (1952)
26 oktyabr 2022
www.medeniyyet.az

# Özbəkistanda “Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri” başa çatıb





*əvvəli səh. 1-də*

AMM-in nəzdində fəaiyyət göstərən Kövkəb Əliyeva adına “Azərbaycan qızları” rəqs ansamblı milli rəqslərimizi ifa edib.

Tədbirdə Azərbaycan və Özbəkistanın milli geyimlərindən ibarət kolleksiya da nümayiş etdirilib. Geyimlər azərbaycanlı modelyer-dizayner Afaq İsmayılzadə tərəfindən hazırlanıb.

***

“Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri” Özbəkistanın Nəvai şəhərində davam edib. “Fərhad” mədəniyyət sarayında keçirilən mərasimdə Nəvai vilayət rəhbərinin müavini Sədullo Mirzoyev tədbir iştirakçılarını salamlayaraq Özbəkistan-Azərbaycan arasında günü-gündən yüksələn münasibətlər haqqında danışıb. O, Nəvaidə ilk dəfə təşkil olunan “Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri”nin böyük mədəni hadisə olduğunu vurğulayıb.

AMM-in direktoru Samir Abbasov Azərbaycan və özbək xalqları arasında əlaqələrin daim yüksək səviyyədə olduğunu qeyd edib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva ölkələrimizin dərin tarixi və ortaq köklərə söykənən yaxınlığı, mədəniyyət və ədəbiyyat sahəsində əlaqələri haqqında danışıb.

Xalq artisti Gülyanaq Məmmədova, Əməkdar artist Sahib Paşazadə və “Azərbaycan qızları” rəqs ansamblının Nəvaidəki çıxışları da alqışlarla qarşılanıb. Azərbaycan və Özbəkistanın milli geyimləri “Qarabağ şikəstə”sinin sədaları altında Nəvai Dövlət Universitetinin tələbə qızları tərəfindən nümayiş etdirilib.

Özbəkistanda “Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri” oktyabrın 22-də başa çatıb.

## “Mərmər soyuğu” Tallinndə festivalda nümayiş olunacaq

Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Azərbaycanfilm” Kinostudiyası, İctimai TV, Bakı Media Mərkəzi və Fransanın “Arizona Films” şirkətinin birgə istehsalı olan “Mərmər soyuğu” tammetrajlı bədii filmi “PÖFF I Tallinn Black Nights” (“Qara Gecələr”) Film Festivalının əsas müsabiqə proqramına daxil edilib.

Avropanın ən böyük film festivallarından olan “PÖFF | Tallinn Black Nights” bu il 11-27 noyabr tarixində keçiriləcək.

Festivalın əsas müsabiqə proqramında ilk dəfə Azərbaycan filmi iştirak edir. “Mərmər soyuğu” festivalın əsas müsabiqə proqramında yer alan 23 ekran əsərindən biridir və bu, filmin dünya premyerasıdır. “Mərmər soyuğu” uğursuz rəssam və sevgilisinin qarışıq münasibətlərindən bəhs edir. Məhbəsdən evə qayıdan ata ən radikal yollarla oğlunun həyatına müdaxilə etməyə çalışır.

Filmin ssenari müəllifləri Asif Rüstəmov və Roelof Jan Minneboo (Hollandiya), quruluşçu rejissoru Asif Rüstəmov, təsvir rejissorları Oktay Namazov və Adil Abbasov, quruluşçu rəssamı Rafiq Nəsirov, geyim rəssamı Şahin Həsənli, qrim rəssamı Elbrus Vahidov, prodüseri Fariz Əhmədov, kreativ prodüseri İradə Bağırzadədir.

Əsas rolları Elşən Əsgərov, Natəvan Abbaslı və Qurban İsmayılov ifa edirlər.




## İrlandiyanın məşhur rəqs şousu Bakıda



Noyabrın 2-də Heydər Əliyev Sarayının səhnəsində müasir dövrün ən gözəl İrlandiya şoularının üçlüyünə daxil olan “Rhythm of the Dance” adlı əfsanəvi rəqs şousu təşkil olunacaq.

Bakıda ilk dəfə təqdim olunacaq proqramda tamaşaçıları kelt melodiyaları, İrlandiya stepindən, canlı musiqidən və solistlərin heyranedici ifasından ibarət füsunkar rəqs şousu gözləyir.

İnanılmaz hərəkət enerjisi, dəqiqlik və sinxronluq, xalq elementlərinin müasir meqapolis ritmləri ilə birləşməsi – bütün bunlar “Rhythm of the Dance” rəqs şousunu dünyanın ən məşhur sənət layihələrindən birinə çevirib.

## Türk Dövlətləri Təşkilatı nəzdində Ortaq Əlifba Komissiyası yaradılıb

Ötən ay Bursada keçirilən “Türk dünyası ortaq əlifba çalıştayı”nda (seminar) Türk Dövlətləri Təşkilatına (TDT) təqdim olunacaq mühüm qərar qəbul edilib.

Türk Dil Qurumu və TDT-nin əməkdaşlığı çərçivəsində, türk dövlətlərindən alimlərin iştirakı ilə gerçəkləşən seminarda ortaq əlifbaya keçidin sürətləndirilməsi və tətbiqinin genişləndirilməsinin vacibliyi vurğulanıb.

Məlumata görə, seminarda TDT nəzdində Ortaq Əlifba Komissiyasının yaradılması qərara alınıb.

Qərara əsasən, türk dövlətlərinin hər birindən 2 nümayəndənin yer alacağı komissiya ortaq əlifba ilə bağlı TDT Ağsaqqallar Şurasına hesabat hazırlayacaq. Komissiyanın ilk iclası Qırğızıstanda keçiriləcək.

Qeyd edək ki, “Türk dünyası ortaq əlifba çalıştayı” 26 sentyabr – Türk Dili Bayramının 90-cı ildönümü münasibətilə keçirilmişdi. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün təlimatı ilə gerçəkləşən Birinci Türk Dil Qurultayının açılış günü (1932-ci il 26 sentyabr) ölkədə Türk Dili Bayramı kimi qeyd olunur.

**Mehparə Sultanova**
**Ankara**

## Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumu bu il də keçirilməyəcək

Bir neçə dəfə ertələndikdən sonra 2022-ci ilin noyabrına nəzərdə tutulan IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumu bu il də keçirilməyəcək.

Bu barədə Rusiya Federasiyası Mədəniyyət Nazirliyindən bildiriblər.

“Mövcud şəraitdə Rusiya Mədəniyyət Nazirliyi forumun keçirilməsini münasib saymır və onun təxirə salındığını bildirmək məcburiyyətindədir”, – deyə nazirlikdən məlumat verilib.

Forumun 10-12 noyabr tarixində keçirilməsi nəzərdə tutulmuşdu.

Xatırladaq ki, artıq üçüncü dəfə təxirə salınan IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunun “fəxri qonaq ölkə”lərindən biri Azərbaycan olmalıdır. Azərbaycanın ənənəvi olaraq qatıldığı bu forumda “fəxri qonaq ölkə” statusunda iştirakı barədə qərar 2018-ci ildə qəbul olunmuş, bununla bağlı iki ölkənin mədəniyyət nazirləri tərəfindən birgə bəyanat imzalanmışdı.

IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumu əvvəlcə 2020-ci ilin, sonra isə 2021-ci ilin noyabrına təyin olunsa da, hər iki dəfə pandemiya səbəbindən təxirə salınmışdı. 2022-ci ildə isə forumun ertələməsinin səbəbi beynəlxalq siyasi konyunkturadır.

Qeyd edək ki, IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunun Azərbaycandan savayı digər iki “fəxri qonaq ölkə”si Almaniya və Fransa olmalı idi. Forumun rəhbəri Yeqor Moskvin bu barədə fevralın əvvəlində Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova ilə görüşündə bildirmişdi. Onun sözlərinə görə, forumun dörd əsas istiqamətdə – incəsənət, muzeylər və mədəni irs, kino, həmçinin kreativ sənaye istiqamətlərində təşkil olunması nəzərdə tutulur.

Lakin 24 fevralda Rusiyanın Ukraynaya hərbi müdaxiləsinə cavab olaraq elan edilən sanksiyalar rejimində, Almaniya və Fransanın “fəxri qonaq”lığı bir yana qalsın, ümumiyyətlə, Qərb ölkələrinin bu foruma qatılması mümkün deyil.

Təşkilatçılar forumu Rusiyaya dost ölkələrin iştirakı ilə keçirməyi planlaşdırsa da, yəqin bunun məhdud bir çevrə olacağı nəzərə alınaraq, ertələmə qərarı verilib.

Yeri gəlmişkən, 2023-cü ildə Sankt-Peterburq şəhəri MDB-nin “Mədəniyyət paytaxtı” olacaq. Əgər Rusiya ətrafında beynəlxalq siyasi situasiya düzəlməsə, yəqin ki, Neva sahilində mədəniyyət forumu da bu çərçivədə keçiriləcək.

**V.Kamal**

## Tərəvəz yeməkləri ilə rəsm əsərlərinə hücum davam edir

Almaniyanın Potsdam şəhərindəki Barberini Muzeyində eko-aktivistlər məşhur fransız impressionisti Klod Monenin “Ot tayaları” (“Les Mueles”) silsiləsindən tablosunun üzərinə kartof püresi atıblar.



“Son nəsil” (“Letzte Generation”) adlı ekoloji təşkilatın üzvləri oktyabrın 23-də muzeyə daxil olaraq sənət əsərinə kartof püresi atıblar. Sonra isə əllərini yerə yapışdırıblar.

Təşkilat nümayəndəsinin sözlərinə görə, onlar bununla qlobal istiləşməyə və mədənçıxarma sənayesinin bu prosesə təsirinə diqqət çəkmək istəyiblər.

Barberini Muzeyindən verilən açıqlamada şüşə ilə örtüldüyü üçün tablonun zədələnmədiyi bildirilib.

Brandenburq Polis Departamenti hadisə ilə əlaqədar saxlanılan iki nəfərə mülkə müdaxilə və ziyan vurmaq ittihamı ilə istintaq başladıb.

“Ot tayası” Klod Monenin məşhur tablolar silsiləsidir. Rəssamın bu mövzuda otuz əsəri var və onların əksəriyyəti muzeylərin kolleksiyasındadır. 2016-cı ildə “Christie’s” hərracında K.Monenin 1891-ci ildə çəkdiyi “Ot tayası” rəsmi 81 milyon dollara satılmışdı.



Xatırladaq ki, iki həftə öncə London Milli Qalereyasındakı holland rəssamı Vinsent Van Qoqun məşhur “Günəbaxanlar” tablosu da bənzər hücuma məruz qalmışdı. “Just Stop Oil” (“Yanacağı dayandır”) ekoloji hərəkatının üzvləri “Günəbaxanlar” tablosuna tomat şorbası atmışdılar.

“Təbiət, yoxsa incəsənət daha dəyərlidir? Niyə onu qorumursunuz?”, – deyə qışqıran eko-aktivistlər bu hərəkətləri ilə milyonlarla insanın aclığına, qışın çətin olacağına, insanların isinmək və yemək arasında seçim qarşısında qalacağına diqqət çəkmək istədiklərini bildiriblər.

Qalereyadan belə vandal hərəkətlərə hazırlıqlı olduqları üçün əsəri şüşə ilə mühafizə etdiklərini, tablonun zərər görmədiyini bildiriblər.

Xronoqraf

## Tarixdə bu gün

*Zamanın səhifələrində qalan olaylar, faktlar...*

### 227 il əvvəl...

**24 oktyabr 1795-ci ildə** Polşanın (Reç Pospolita) 3-cü dəfə bölüşdürülməsinə dair Rusiya, Prussiya və Avstriya arasında “Peterburq sazişi” imzalanıb. Polşanın dövlət kimi mövcudluğuna son qoyulub. Polşanın bölüşdürülməsinə dair öncəki iki saziş 1772 və 1793-cü illərdə imzalanmışdı. Nəticədə Reç Pospolitanın tərkibinə daxil olan indiki Litva, Belarus və Ukraynanın bir hissəsi Rusiyanın nəzarətinə keçdi.

### 93 il əvvəl...



**24 oktyabr 1929-cu ildə** Nyu-York Fond Birjasında ABŞ şirkətləri səhmlərinin sürətlə qiymətdən düşməsi ilə ölkə görünməmiş maliyyə böhranına yuvarlanıb. Tarixə “qara cümə axşamı” adı ilə düşən bu hadisə Amerikada “böyük depressiya”nın başlanğıcı oldu. Tezliklə “böyük depressiya” əksər Avropanı da bürüdü.

### 77 il əvvəl...

**24 oktyabr 1945-ci ildə** BMT-nin Nizamnaməsi qüvvəyə minib, təşkilat rəsmən fəaliyyətə başlayıb. 1945-ci il iyunun 26-da San-Fransiskoda (ABŞ) keçirilən beynəlxalq konfransda qəbul olunan sənədə 40-dan çox ölkə (o cümlədən SSRİ, ABŞ, Britaniya) imza atmışdı və 29 ölkənin ratifikasiyasından sonra BMT Baş Assambleyasının 1-ci sessiyası işə başladı. Hazırda 193 ölkə BMT-nin üzvüdür.

### 62 il əvvəl...

**24 oktyabr 1960-cı ildə** Qazaxıstandakı Baykonur kosmodromunda kosmik raketin sınaq buraxılışı zamanı dəhşətli partlayış baş verib. Nəticədə SSRİ-nin Strateji Raket Qoşunlarının komandanı marşal Mitrofan Nedelin başda olmaqla 160 nəfər yüksək hərbi zabit və konstruktorlar heyəti həlak olub.

### 58 il əvvəl...

**24 oktyabr 1964-cü ildə** Britaniyanın Mərkəzi Afrikadakı müstəmləkəsi olan Şimali Rodeziya Zambiya adı altında müstəqilliyini elan edib.

### 55 il əvvəl...

**26 oktyabr 1967-ci ildə** İranda Pəhləvilər sülaləsinin sonuncu nümayəndəsi – şah Məhəmməd Rza Pəhləvi taxta çıxıb. Onun hakimiyyəti 1979-cu ilədək çəkdi və həmin il İslam inqilabı nəticəsində İranda monarxiya devrildi.

### 51 il əvvəl...

**25 oktyabr 1971-ci ildə** Çin Xalq Respublikası BMT-yə üzv olub. ÇXR 1949-cu ildə elan edilsə də, uzun müddət ABŞ-ın əngəli üzündən BMT-yə qəbul edilmirdi. Həmin il xalq inqilabından sonra Qomindan rejiminin rəhbərliyi Tayvana qaçaraq orada “Çin Respublikası” elan etmişdi və Vaşinqtonun səyi ilə bu “respublika” BMT-yə qəbul olunmuşdu. 1971-ci ilədək Tayvan (“Çin Respublikası” adı ilə) BMT-də Çini təmsil edib. 1966-cı ildə Pekinin nüvə silahına malik olması vəziyyəti dəyişdi, ÇXR Tayvanın BMT-dəki yerini aldı, üstəlik TŞ-nin 5 daimi üzvündən biri oldu.

### 30 il əvvəl...

**24 oktyabr 1992-ci ildə** ABŞ Konqresində keçmiş sovet respublikalarına humanitar yardımı tənzimləyən qanuna – “Azadlığa Dəstək Aktı”na 907 saylı düzəliş əlavə edilib. Erməni lobbisinin təşəbbüsü ilə qəbul edilən sənəd Azərbaycana ABŞ-ın dövlət yardımını qadağan edirdi. 2001-ci ilin sonunda Konqres ABŞ Administrasiyasının müraciəti əsasında onun qüvvəsini dayandırsa da, düzəliş rəsmən ləğv olunmayıb.

### 25 il əvvəl...




**25 oktyabr 1997-ci ildə** Azərbaycan neftinin Şimal marşrutu – Bakı-Novorossiysk (Qara dəniz) neft kəməri ilə ixracı başlanıb. Sovet dövründə çəkilən boru xətti (uzunluğu 800 km, nəql gücü ildə 5 milyon ton) Çeçenistandakı müharibə səbəbindən bir neçə il fəaliyyətsiz qalmışdı. 1999-cu ildə Azərbaycan neftini dünya bazarına daşıyan ikinci kəmər – Bakı-Supsa (Qara dəniz) işə düşdü.

### 20 il əvvəl...

**23-26 oktyabr 2002-ci ildə** Moskvada “Nord-Ost” terroru baş verib. Oktyabrın 23-də axşam Mavsar Barayevin başçılığı ilə “ölüm kəməri” bağlamış 40-a yaxın çeçen mənşəli şəxsdən ibarət dəstə Dubrovka teatr mərkəzinə basqın edərək “Nord-Ost” müziklini izləyən 850-dək tamaşaçını girov götürüb. Terrorçular Rusiya qoşunlarının Çeçenistandan çıxarılmasını və Çeçenistanın müstəqilliyinin tanınmasını tələb ediblər. Müxtəlif dairələrin apardıqları danışıqlar sayəsində terrorçular bir neçə nəferi (o cümlədən 4 azərbaycanlı) buraxıblar. Oktyabrın 26-da səhərə yaxın xüsusi təyinatlıların binaya “yuxu qazı” buraxaraq başlatdığı əməliyyat nəticəsində terrorçular məhv edilib. Eyni zamanda 130 (rəsmi rəqəmlərə görə) girov həlak olub.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 3086
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641